QARABAĞ AZƏRBAYCANDIR!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 203 (6167) 14 noyabr 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Tarixi qələbə!

## İlham Əliyev: “Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq”



Bax 2

## “Ermənistanın təcavüzü nəticəsində dəymiş ziyanla bağlı rəqəmlər beynəlxalq ictimaiyyətə təqdim olunacaq”



Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində törədilmiş dağıntılar 30 illik proses çərçivəsində ayrıca qiymətləndiriləcək. Azərbaycan əvvəllər bu məsələni qaldıran zaman həmin ərazilərə giriş imkanı olmayıb, real faktlar əsasında bunu ortaya qoymaq çətin olub. İndi isə həmin ərazilər işğaldan azad edilib.

Bax 3

## Fransız jurnalist: Azərbaycan beynəlxalq hüququ tətbiq etməyi bacardı




Yerevanın Qarabağı istilası nəticəsində Ermənistan-Azərbaycan arasında başlayan münaqişənin həlli üçün 1992-ci ildə yaradılmış və həmin vaxtdan bu böhrandan çıxmaq üçün böyük rol oynaması gözlənilən Minsk qrupu uduzdu. ATƏT-in himayəsi...

Bax 3

## Arayik Arutyunyan: “Müharibəni dayandırmağı şəxsən xahiş etdim”



Qondarma rejim prezidenti Arayik Arutyunyan dünən parlament fraksiyaları ilə görüşüb. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə Arutyunyan özünün Facebook səhifəsində yazıb...

Bax 7



## Ataşkəs bəyannaməsi niyə Soçidə imzalandı?



## 28 ildən sonra Şuşada Cümə namazı qılındı

## Mitinqdə ermənilər Putini təhqir etdilər



Bax 10

## Ter-Petrosyan: Ermənistan razılaşma üzrə problemin həllinə hazır olmalıdır



Bax 5

## Sinan Oğan: Azərbaycanın qazandığı tarixi Qələbə türk dünyasına əvəzsiz hədiyyədir



## Neymar Braziliya millisindən kənarlaşdırıldı!



Bax 16

# Tarixi qələbə!

***Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən zəfər yürüşünə başladı. Qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, uzun illər ərzində işğal olunan Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli, Şuşa, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad olundu. Beləliklə, 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi.***

## *İlham Əliyev: "Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq"*



## *Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı*

Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri birgə bəyanat imzaladılar. Sonra Prezident İlham Əliyev Qələbə müjdəsini xalqa çatdıraraq müraciət edib.

"Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır".

Bu sözləri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində söyləyib.

Dövlətimizin başçısı deyib: "30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da güclәndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik. Dedik ki, düşməni torpaqlarımızdan qovacağıq! Heç bir danışıqlar bizi maraqlandırmır. Siz də yaxşı bilirsiniz ki, son bir il ərzində mən danışıqlar haqqında, ümumiyyətlə, söhbət aparmıram. Xalqımı aldatmaq istəmirdim, heç vaxt aldatmamışam və aldatmayacağam. Azərbaycan xalqı bunu bilir. Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi. Dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!".

### "Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm"

Dövlət başçısı hər dəfə qələbə müjdəsini xalqına çatdırmaqdan qürur duyduğunu bildirib: "Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq. Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz".

### "Bu günlər ərzində mən gördüm ki, milli məsələlərdə siyasi baxışlarından asılı olmayaraq biz hamımız birləşə bilirik"

"Mən bu günlərdə bir şeyə də fikir verdim. Hətta fərqli siyasi baxışlara malik olan insanlar, bizim işimizə tənqidi yanaşan insanlar, hətta bir çox hallarda əsassız tənqidlər ifadə edən insanlar bu dövrdə hesab edirəm ki, yüksək şüur nümunəsi göstərdilər",-deyən dövlət başçısı bildirib ki, mən həmişə deyirdim ki, siyasi müstəvidə fərqli baxışlar var, olmalıdır, bu, normaldır: "Müxalifət olmalıdır, bu, normaldır. Hər bir demokratik ölkədə olduğu kimi, bizdə də əlbəttə ki, bütün bu azadlıqlar var. Amma bir şey olmamalıdır - dövlətə müxalifətdə olmaq olmaz, dövlətçiliyə müxalifətdə olmaq olmaz. "İqtidara, dövlətə nə qədər pisdir mənim üçün bir o qədər yaxşıdır" fikri ilə yaşamaq olmaz. Mən deyə bilərəm, bu günlər ərzində mən gördüm ki, milli məsələlərdə biz hamımız birləşə bilirik. Bu da bizim gələcəyimiz üçün çox önəmlidir. Çünki biz hamımız istəyirik ki, Azərbaycan inkişaf etsin, hamımız istəyirik ki, daha güclü ölkə olsun".

### "Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzinə çevrilib"

"Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzinə çevrilib. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi". Bu sözləri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bildirib: "Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir! Zəngilan bizimdir! Qubadlı bizimdir! Ağdam bizimdir! Laçın bizimdir! Kəlbəcər bizimdir! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

Dövlət başçısı xalqa müraciətdə bildirib ki, biz döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda gücümüzü göstərmişik, müstəqilliyimizi göstərmişik: "Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi - yenilməz xalq, dəmir iradəli xalq, müzəffər xalq, müzəffər ordumuz. Biz xalqımızla, ordumuzla fəxr edirik".

### "Hər kəs bizim gücümüzü gördü,hər kəs bizim dəmir yumruğumuz nədir, anladı"

"Artıq Azərbaycan xalqının səbri tükənmişdi və mən Ermənistan baş nazirinə son görüşlərdə demişdim ki, siz odla oynamayın, Azərbaycan xalqının səbri ilə oynamayın. Siz Azərbaycan xalqını tanımırsınız, siz tanıyacaqsınız bizi, amma gec olacaq. Düz yola gəlin, çıxın bu torpaqlardan, bu torpaqlar sizə mənsub deyil. Amma nə etdilər?",- deyən dövlət başçısı işğalçı Ermənistanın qanunsuz məskunlaşma aparmaq üçün beynəlxalq hüququ, beynəlxalq konvensiyaları, o cümlədən Cenevrə konvensiyalarını kobudcasına pozaraq nümayişkaranə şəkildə xaricdən erməniləri gətirərək, özü də məhz Şuşada yerləşdirilməsinin xalqımızın hissiyyatına toxunduğunu deyib: "Məhz Şuşada o dəstə başçısı hansı ki, indi deşik axtarır gizlənməyə, xunta başçısı özünə andiçmə mərasimi keçirmişdir və Ermənistan baş naziri gedib orada iştirak edib. Bu, bizə sataşmaq deyildimi? Bunun hesabını sizdən soruşan olmayacaqdımı?!".

### "Biz alçaltmışıq onu, əcəb də etmişik"

Dövlət başçısı bildirib ki, Vətən Müharibəsi başlayandan bu günə kimi, Paşinyanın onun-bunun ətəyindən yapışıb bu 40 gündən çox bir müddətdə adam qalmayıb ki, zəhləsini tökməsin, yardım istəməsin, özünü alçaltmasın: "Biz alçaltmışıq onu, əcəb də etmişik. Bizim üçün müqəddəs olan Şuşa şəhərinin Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edəndə fikirləşəydi ki, bu gün gələcək, cəzasını alacaq, siçan kimi gizlənib bax bu sənədi götürüb ağlayaağlaya imzalayacaq. Yerini göstərdik, dərsini verdik. Qovmuşuq onları torpaqlarımızdan, iti qovan kimi qovmuşuq. Demişdim ki, qovacağıq, iti qovan kimi qovacağıq və qovmuşuq, iti qovan kimi qovmuşuq. Qorxularından indi bu sənədə imza atır, bilir ki, biz Ağdama da, Kəlbəcərə də, Laçına da gələcəyik. Heç kim bizi saxlaya bilməz. Hər kəs bizim gücümüzü gördü, hər kəs bizim dəmir yumruğumuz nədir, anladı. Ona görə qovmuşuq onları, əcəb də etmişik".

"Mən bir məsələni də bildirmək, əziz xalqıma çatdırmaq istəyirəm. Yəqin siz fikir vermisiniz ki, bu bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur. Bəs hanı Ermənistan tərəfinin tələbləri ki, Dağlıq Qarabağa müstəqillik verilməlidir?", -deyən dövlət başçıs bildirib ki, onlara muxtariyyət təklif edəndə buna razı olmadılar: "Dedilər ki, yox, bu, "müstəqil dövlətdir" Uzun illər bunlar "müstəqil dövlət" kimi yaşayır və onlar Azərbaycandan müstəqillik almalıdırlar. Bir kəmlə də yoxdur, Paşinyan. Nə oldu bəs? Bu nə oldu Paşinyan, deyəsən bir çox illər ərzində dillərdə qalacaq. Nə oldu Paşinyan, yol çəkirdin Cəbrayıla. Rəqs edirdin, nə oldu bəs status? Cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status, yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm olmayacaq".

Ali Baş Komandan onu da deyib ki, bu sənədin çox böyük mənası var: "Əminəm ki, Azərbaycan xalqı bu sənədə böyük diqqət göstərərək onu dəqiq, böyük diqqətlə oxuyacaq və görəcək ki, biz nə qədər böyük siyasi qələbə qazanmışıq...Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!"

**RƏFİQƏ KAMALQIZI**

# “Ermənistanın təcavüzü nəticəsində dəymiş ziyanla bağlı rəqəmlər beynəlxalq ictimaiyyətə təqdim olunacaq”

Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində törədilmiş dağıntılar 30 illik proses çərçivəsində ayrıca qiymətləndiriləcək. Azərbaycan əvvəllər bu məsələni qaldıran zaman həmin ərazilərə giriş imkanı olmayıb, real faktlar əsasında bunu ortaya qoymaq çətin olub. İndi isə həmin ərazilər işğaldan azad edilib.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev müharibə zamanı ermənilərin Azərbaycan vətəndaşlarına vurduqları ziyanın qiymətləndirilməsi ilə bağlı noyabrın 13-də keçirilən brifinqdə bildirib.

Hikmət Hacıyev qeyd edib ki, Prezidentin son Sərəncamı isə sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılmasını əhatə edir. Dəymiş ziyanla bağlı rəqəmlər Xarici İşlər Nazirliyi tərəfindən beynəlxalq ictimaiyyətə təqdim olunacaq.




Prezidentin köməkçisi qeyd edib ki, Ermənistanın təcavüzü nəticəsində zərər görən vətəndaşlara yeni evlər veriləcək, lazım olduğu halda onların evləri əsaslı təmir ediləcək. Hikmət Hacıyev bildirib ki, Ermənistanın təxribatı nəticəsində 4 məscid və kilsəyə, 15 qəbiristanlığa, cəbhəboyu ərazilərdə yerləşən 50-dən çox məktəb binasına ziyan dəyib. Prezidentin köməkçisi qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının nəzdində Uşaq Hüquqları üzrə Komissiyanın fəaliyyətində hərbi əməliyyatlar zamanı uşaqlara qarşı cinayətin törədilməsində bir neçə ən ağır hallar müəyyən edilib ki, onların içində məktəblərin, uşaq bağçalarının hədəfə alınması və bombalanması ən ağır cinayətlər hesab edilir. Aidiyyəti beynəlxalq təşkilatlar da cəlb edilməklə bu prosesin qiymətləndirilməsi həyata keçiriləcək.

# Ermənistanın təcavüzü nəticəsində sentyabrın 27-dən başlayaraq Azərbaycan ərazisinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı işçi qruplar yaradılıb və fəaliyyətə başlayıb




Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il 06 noyabr tarixli “2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı”na əsasən ziyanın qiymətləndirilməsi və aradan qaldırılması məqsədilə Dövlət Komissiyası yaradılıb. Sərəncamdan irəli gələn vəzifələri yerinə yetirilməsi məqsədilə Dövlət Komissiyasının noyabrın 9-da ilk iclası keçirilib. Noyabrın 12-də Azərbaycan Respublikasının Baş naziri Prezidentin tapşırıqlarının həyata keçirilməsini təmin etmək üçün müvafiq Sərəncam imzalayıb. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Sərəncama əsasən 3 qrup yaradılıb:

- Nazirlər Kabineti Aparatı üzrə Koordinasiya qrupu;
- Aidiyyəti dövlət orqanlarının rəhbərlərinin müavinlərindən ibarət tərkibdə müvafiq sahələrə rəhbərlik üzrə İşçi qrupu. Buraya daxildir: İqtisadiyyat nazirinin müavini, fövqəladə hallar nazirinin müavini, Baş prokurorun müavini, Kənd Təsərrüfatı Nazirliyinin, “ASAN xidmət”in nümayəndələri, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini və Maliyyə Nazirliyi Aparatının rəhbəri;
- Aidiyyəti dövlət orqanlarının nümayəndələrindən ibarət tərkibdə işçi qruplar.

Bütövlükdə, Ağdam, Ağcabədi, Beyləqan, Bərdə, Tərtər, Füzuli və Cəbrayıl, Goranboy və Naftalan, Gəncə, Mingəçevir rayon və şəhərləri üzrə 11 işçi qrupu yaradılıb. Tərtər rayonu üzrə dəymiş ziyanın miqyasını nəzərə alaraq 3 işçi qrupu formalaşdırılıb.

Koordinasiya qrupuna tapşırılıb ki, dövlət orqanlarının (qurumlarının) işlərinin əlaqələndirilməsi təşkil və təmin edilsin, həyata keçirilən tədbirlər üzrə analitik təhlillər aparılsın, statistik hesabatlar hazırlansın, görülən işlər barədə mütəmadi olaraq Komissiyaya məlumat verilsin.

İşçi qruplar mülki əhaliyə, dövlət əmlakına, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini təmin edərək və dəymiş ziyanın aradan qaldırılması, zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaiti barədə təkliflərini 2020-ci il dekabrın 10-dək Komissiyaya təqdim edəcəklər.

Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə, Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə, “Azərsu” Açıq Səhmdar Cəmiyyətinə, “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinə, “Azəriqaz” Qapalı Səhmdar Cəmiyyətinə və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə tapşırılıb ki, infrastruktur obyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini təmin etsinlər və aradan qaldırılması üçün tələb olunan maliyyə vəsaiti barədə təkliflərini 2020-ci il dekabrın 1-dək Komissiyaya təqdim etsinlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılıb ki, dəymiş ziyana və onun aradan qaldırılmasına, o cümlədən zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin aparılmasına çəkilmiş xərclərə dair vahid məlumat bazasının formalaşdırılmasını 2020-ci il dekabrın 10-dək təmin etsin.

Xatırladırıq ki, 27 sentyabrdan sonra Ermənistanın təcavüzü nəticəsində təqribən 3 700 obyektə müxtəlif dərəcəli ziyan dəyib. Evində yaşayışın mümkün olmadığı vətəndaşlar müvafiq mənzillərdə yerləşdiriliblər.

Qiymətləndirməni həyata keçirmək məqsədilə yerli özəl qiymətləndirmə şirkətlərinin də prosesə cəlb olunacaq. Eyni zamanda, dəymiş ziyanın qiymətləndirilməsi üçün xarici şirkətlərin də cəlb olunması istiqamətində XİN tərəfindən iş aparılır. Xarici İşlər Nazirliyi Prezidentin Sərəncamından irəli gələn tapşırığa əsasən vurulmuş ziyana və onun aradan qaldırılmasına, o cümlədən zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin aparılmasına çəkilmiş xərclərə dair məlumatlarla beynəlxalq institutları təmin edəcək və bu istiqamətdə iş aparılır.

# Fransız jurnalist: Azərbaycan beynəlxalq hüququ tətbiq etməyi bacardı




Yerevanın Qarabağı istilası nəticəsində Ermənistan-Azərbaycan arasında başlayan münaqişənin həlli üçün 1992-ci ildə yaradılmış və həmin vaxtdan bu böhrandan çıxmaq üçün böyük rol oynaması gözlənilən Minsk qrupu uduzdu. ATƏT-in himayəsi altında yaradılmış, ABŞ, Rusiya və Fransanın həmsədrlik etdiyi bu qrup münaqişənin tez həlli istiqamətində öz nüfuzundan istifadə etməyi bacarmadı. Bir tərəfdə başqa prioritetləri olan Donald Tramp, eləcə də güclü və etibarlı diplomatik rol oynamaq üçün Fransadakı ermənipərəst təzyiq qruplarının təsiri altında zəruri bitərəfliliyi saxlaya bilməyən Emmanuel Makron. Digər tərəfdə isə hər iki ölkə ilə yaxşı münasibətləri olan, ənənəvi olaraq Ermənistanı siyasi və hərbi baxımdan dəstəkləyən, eləcə də Azərbaycana da hərbi sursat təchiz edən və hər iki tərəfi danışıqlar masasına yönəldə bilən tək Rusiya.

AZƏRTAC xəbər verir ki, bu fikirləri fransız jurnalist Sebastyən Bussua “RT France” telekanalının saytındakı yazısında vurğulayıb.

“Bakının dəfələrlə təsdiqlədiyi kimi, müharibənin məqsədi 30 ildir qəbul edilmiş və Azərbaycanın de-fakto tanınan ərazilərindən erməni silahlı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxmasını tələb edən beynəlxalq qətnamələri yerinə yetirməkdir. Bunlar BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı, BMT Baş Assambleyasının 62/243 (2008) saylı qətnamələridir. Azərbaycan bizim tətbiq etməyi bacarmadığımız beynəlxalq hüququ tətbiq etməyi bacardı”, - deyə jurnalist Sebastyən Bussua yazır. O, 44 gün davam edən müharibənin Ermənistanın açıq məğlubiyyəti ilə bitdiyini qeyd edib.

# Azərbaycanda 1465 nəfər COVID-19-a yoluxub, 805 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1465 yeni yoluxma faktı qeydə alınıb, 805 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 17 nəfər vəfat edib.




Azərbaycanda indiyədək ümumilikdə 62 338 nəfər koronavirus infeksiyasına yoluxub, onlardan 47 270 nəfər müalicə olunaraq sağalıb, 811 nəfər vəfat edib, aktiv xəstə sayı 14 257 nəfərdir. Ölkədə son sutka ərzində 12 825, hazırkı dövrədək isə 1 417 368 test aparılıb.

# RF-nın Prezident Administrasiyası ermənilərin cavabını Verdi: Qarabağ Azərbaycandır!

Rusiya Prezidentinin Administrasiyası növbəti bəyanatla çıxış edib və Ermənistanda anti-Rusiya xarakterli çıxışlara cavab verib. SİA xəbər verir ki, RİA Novostinin yazdığına görə, ermənilərin KTMT ilə də bağlı iddialarına münasibət bildirən RF-nın Prezident Administrasiyası qeyd edib: “Qarabağ münaqişəsi zamanı Rusiyaya qarşı yersiz ittihamlar irəli sürüldü. Bunlar mənasızdır. Ermənistanla bağlı məsələdə KTMT öhdəliyimizi unutmamışıq. Lakin Rusiyanın Qarabağa ordu göndərmək hüququ yox idi”.



Prezident Administrasiyası Qarabağın Azərbaycanın hüquqi ərazisi olduğunu vurğulayıb və qeyd edib: “Ora hüquqi olaraq Azərbaycanın ərazisidir. Biz ora sülhməramlıları da yalnız münaqişə tərəflərinin razılığından sonra göndərə bildik”.

Beləliklə, ermənilərin anti-Rusiya çağırışlarına verilən daha bir cavab həm də belə nəticəyə gəlməyə zəmin yaradır ki, artıq Qarabağ ərazisində bir nəfər də olsun erməni işğalçı hərbçisi olmayacaq və sülhməramlıların üzərlərinə götürdükləri öhdəliyin əsas tərkib hissəsi də budur.

**Rövşən**

# Milli Məclisin növbəti iclası keçirilib






***Noyabrın 13-də Milli Məclisin payız sessiyasında növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, Azərbaycan xalqı 30 ildən bəri həsrətlə gözlədiyi böyük Qələbənin sevincini yaşayır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin yenilməz iradəsi və ordumuzun qəhrəmanlığı sayəsində xalqımızın qurtuluş savaşı zəfərlə başa çatıb, işğalçı Ermənistan təslim olmağa məcbur edilmiş və ölkəmizin ərazi bütövlüyü təmin olunub.***

Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağın işğaldan azad edilməsi xalqımızı uzun illər davam edən məğlubiyyət acısından qurtarıb və onu qalib xalqa çevirib. Təəssüf ki, müharibə itkisiz olmur. Biz də bu müharibədə itkilər verdik.

İclasda Milli Məclis sədrinin təklifi ilə döyüş meydanında, dinc şəhər və kəndlərimizdə şəhid olmuş insanlarımızın xatirəsi 1 dəqiqəlik sükutla yad edilib. Sədr Allahdan bütün şəhidlərimizə rəhmət, yaralılarımıza şəfa diləyib.

Sonra spiker bildirib ki, bu gün Azərbaycan bayrağı Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Şuşada qürurla dalğalanır, tezliklə Kəlbəcərdə, Ağdamda, Laçında, digər torpaqlarımızda yüksələcək.

Vətən müharibəsinin ən şərəfli səhifələrindən biri noyabr ayının 8-də Qarabağın incisi və tacı, Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın işğaldan azad edildiyi gün oldu. Sədr Şuşanı, digər şəhər və kəndlərimizi düşməndən təmizləyən əsgər və zabitlərimizin qəhrəmanlığının dillərdə dastan olacağına əminliyini bildirib. Qeyd edib ki, Azərbaycan Ordusu döyüş meydanında göstərdiyi hünərlər ilə xalqımızın nəyə qadir olduğunu dünyaya nümayiş etdirdi.

O vurğulayıb ki, bu tarixi günlərin bizim üçün ən mühüm nəticələrindən biri də xalqımızın Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşməsi və bütövləşməsi oldu. Azərbaycan xalqının birliyinin rəmzinə çevrilən bu yumruq düşmənə endirilən ağır zərbələrin ifadəsi idi. Çətin sınaq qarşısında Azərbaycan xalqının yenilməz gücə çevrildiyini hər kəs görüb yəqin etdi. Bu birliyin, bu qüvvətin qarşısında düşmən duruş gətirə bilməzdi və gətirə də bilmədi.

Spiker xatırladıb ki, noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən imzalanmış üçtərəfli bəyanatla Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulub. Bu bəyanatın Azərbaycan Respublikası üçün çox böyük tarixi əhəmiyyəti var. Belə ki, bəyanatın müddəalarına əsasən 2020-ci il dekabrın 1-dək Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş ərazisindən çıxarılacaq, Kəlbəcər, Ağdam və Laçın rayonları isə qan tökülmədən, şəhidlər verilmədən Azərbaycana qaytarılacaq. Bununla da ölkəmizin ərazi bütövlüyü təmin ediləcək, məcburi köçkünlərimiz doğma yurdlarına dönə biləcəklər. Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin bərpası da milli maraqlarımızın təmin edilməsi baxımından vacib məsələdir.

Sədr bir məqamı da xüsusi qeyd edib ki, bu müharibədə Ermənistan elə ağır zərbə aldı ki, onun özünə gəlməsi üçün neçə illər lazım olacaq. Biz bu gün hamımız Yerevanda baş verənləri müşahidə edirik: "Bir tərəfdən, şəhərin küçələrində kütlə azğınlıq edir, hərcmərclik hökm sürür. Digər tərəfdən, iqtidar müxalifətin bütün liderlərini həbs edir, müxalif deputatların mandatdan məhrum edilməsi barədə söhbətlər gəzir və s.

Diqqət yetirin, bütün bu rüsvayçı hadisələr Qərbin bəzi dairələrinin demokratik dövlət kimi qələmə verməyə çalışdığı bir ölkədə baş verir. Ancaq nə Qərb dövlətlərinin rəhbərləri, nə də onların dırnaqarası "informasiya vasitələri" bu qanunsuz əməllərə münasibət bildirmir, susmağı üstün tuturlar. Güman edirəm, hər şey aydındır. Hər kəs öz simasını göstərir. Doğrudan da, möhtərəm Prezidentimizin dediyi kimi, bizə demokratiya dərsi keçməyə çalışanlar əvvəl güzgüdə özlərinə baxsınlar.

Bu müharibədə dünya bir həqiqəti də gördü ki, erməni vandalları işğal altında saxladıqları şəhər və kəndlərimizi viran qoymuş, tarixi-mədəni abidələrimizi yerlə-yeksan etmiş, milli sərvətlərimizi talan etmişlər".

Sədr diqqətə çatdırıb ki, həmin ərazilərdə infrastruktur tam sıradan çıxarılıb. Ancaq biz əminik ki, cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı bütün dağıdılmış yaşayış məntəqələrini bərpa edəcək və Qarabağ sakinləri ata-baba yurdlarında yenidən qurub yaradacaqlar.

Biz bilirik ki, müharibənin davam etdiyi dövrdə dövlət başçısı nə qədər böyük təzyiqlərə məruz qalsa da, geri çəkilməmiş, Ordumuzun zəfər yürüşünü qələbə ilə başa çatdırmağa nail olmuşdur.

Bu isə düşmən üzərində böyük Qələbədə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin nə qədər böyük rol oynadığını bir daha təsdiq edir.

Spiker deyib ki, möhtərəm Prezidentimiz xalqa müraciətində bu məsələyə toxunmuşdur. Demək olar ki, hər gün ondan dayanmağı tələb edirdilər. Amma möhtərəm Prezidentimizin dediyi kimi, "...biz qabağa getdik. Çünki mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi.

Çünki mən bilirdim ki, biz haqlıyıq. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz torpaqlarımızı qaytarırıq...

Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!"

Sədr vurğulayıb ki, biz sonsuz qürur hissi ilə yurd yerlərimizə, doğma Qarabağa qayıdırıq. Bu haqqı bizə qəhrəman ordumuz, onun Ali Baş Komandanı qaytarıb. Biz şəhidlərimizin, qanlı döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin igidliyini və fədakarlığını heç vaxt unutmayacağıq.

Spiker bir məsələni də diqqətə çatdırıb ki, möhtərəm Prezidentimizin bir il əvvəl Soçi şəhərində "Valday" beynəlxalq diskussiya klubunun iclasında səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida" ifadəsi Azərbaycanın qələbəsinin rəmzinə çevrildi.

Bu gün yüz minlərin, milyonların dilindən eşidilən bu milli şüar artıq reallığa çevrilib. Bəli, Qarabağ Azərbaycandır!

Eşq olsun Ali Baş Komandanımız İlham Əliyevə!

Eşq olsun qəhrəman Ordumuza!

Yaşasın Azərbaycan xalqı!

Daha sonra spiker deyib: "Yəqin xatırlayırsınız, 6 ay bundan əvvəl mənim dəvətimlə şuşalı gənc qız Əsra Məmmədli bu salonda çıxış etmişdi. O zaman Şuşa şəhəri işğal altında idi və gənc qızımızın çıxışı da o vaxtın ovqatına uyğun idi. Onun çıxışı yadımdadır ki, hamımızı duyğulandırdı və böyük təsir bağışladı. Mən bu gün yenə də Əsra Məmmədlini bu zala dəvət etmək istəyirəm. Düşünürəm ki, onun nə hiss etdiklərini dinləmək maraqlı olar".

İclasda çıxış edən şuşalı qız Əsra Məmmədli bildirib ki, bir neçə ay əvvəl burada çıxış edərkən təsəvvür belə etməzdi ki, Vətənə qovuşmaq və Şuşanı görmək bu qədər yaxın olacaq. Artıq işğala son qoyuldu. Azərbaycan əsgəri, Azərbaycan xalqı qanı və canı bahasına öz torpağına sahib çıxdı. Ali Baş Komandan cənab İlham Əliyev başda olmaqla müzəffər Azərbaycan ordusu bizi doğma torpaqlarımıza qovuşdurdu. Bizim ailəmiz babalarımın evinə qayıdır!

Sədr bildirib ki, Əsranın sözləri bütün millət vəkillərinin fikirlərini əhatə edir.

Sonra Milli Məclis Aparatının mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin böyük Qələbə münasibətilə hazırladığı videoçarx nümayiş etdirilib.

Daha sonra sədrin təklifi ilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Azərbaycan xalqına Azərbaycan Respublikası Milli Məclisinin müraciətinin mətninin hazırlanması üçün Milli Məclis sədrinin birinci müavini Əli Hüseynlinin başçılığı ilə komissiya yaradılıb. Komissiyaya Milli Məclisin deputatları Nizami Cəfərov, Tural Gəncəliyev, Nigar Arpadarai və Erkin Qədirli daxil edilib.

İclasda Mili Məclis sədrinin müavini Adil Əliyev, deputatlar - Əhliman Əmiraslanov, Ziyafət Əsgərov, Hicran Hüseynova, Eldar İbrahimov, Səməd Seyidov, Şahin İsmayılov, Siyavuş Novruzov, Tahir Mirkişili, Məlahət İbrahimqızı, Razi Nurullayev, Fəzail Ağamalı, Cavid Osmanov, Jalə Əliyeva, Zahid Oruc, Nəsib Məhəməliyev, Anar İsgəndərov, Vahid Əhmədov, Eldəniz Səlimov, İsa Həbibbəyli, Fazil Mustafa, Azay Quliyev, Musa Qasımlı, Sabir Rüstəmxanlı, Etibar Əliyev, Elman Nəsirov və Qüdrət Həsənquliyev xalqımızın qazandığı böyük Qələbə münasibətilə ürək sözlərini bildiriblər. Qeyd ediblər ki, bu Qələbə daxili həmrəyliyimizin, milli birliyimizin və Ali Baş Komandanımızın dediyi kimi, yumruq kimi birləşməyimizin parlaq nəticəsi oldu. 44 gün davam edən müharibədə Prezident İlham Əliyev Azərbaycanın haqqını ən yüksək səviyyədə qorudu və qəbul etdirdi. Prezidentin xarici ölkələrin televiziya kanallarına verdiyi müsahibələr isə bu işin avanqardı oldu. Bildirilib ki, bu Qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq və Dünya hərb tarixinə yeniliklər gətirmiş müharibə kimi düşəcək.

Sonra Milli Məclisin deputatı Nigar Arpadarai Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Azərbaycan xalqına Azərbaycan Respublikası Milli Məclisinin müraciətinin mətnini oxuyub. Müraciət səsə qoyularaq təsdiqlənib. Bununla da Milli Məclisin iclası başa çatıb.

# Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə YAP-ın müraciəti

***Doğma Qarabağın azad edilməsi uğrunda Vətən müharibəsinin möhtəşəm qələbə ilə başa çatması hər bir Azərbaycan vətəndaşının qəlbində böyük qürur və iftixar hissi yaratmışdır. 30 il davam edən işğala son qoyulması, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi, məcburi köçkünlərin köçkünlük həyatının sona çatması və doğma yurdlarına qayıtmaq imkanlarının yaradılması müasir tariximizin ən möhtəşəm hadisəsidir.***

## Zati-aliləri, müzəffər Ali Baş Komandanımız!

Cəmi 44 gün davam edən müharibəyə Azərbaycan Sizin rəhbərliyiniz altında illərlə hazırlaşdı, qələbəyə lazım olan gücünü artırdı. Bir il əvvəl bəyan etdiyiniz "Qarabağ Azərbaycandır!" kəlmələri xalqımızın müqəddəs torpaqlarımız uğrunda savaşının ideya əsası, qələbəyə səsləyən lider çağırışı oldu. Bütün xalq bu çağırışa səs verdi, birləşdi, qələbəmizin əsasına çevrilən milli birliyimizi və həmrəyliyimizi formalaşdırdı. Cəmiyyətimizin bu günlərdə nümayiş etdirdiyi möhtəşəm səfərbərlik xalqımızın Sizin ətrafınızda sıx birləşməsinin bariz ifadəsi olmaqla yanaşı, eyni zamanda Azərbaycanın bütün dünyaya ciddi mesajı kimi qəbul edildi.

Vətən müharibəsində qazanılan tarixi qələbə Azərbaycan xalqının əzmini, qətiyyətini, mübarizliyini, doğma torpaqları uğrunda hər cür fədakarlığa və qəhrəmanlığa hazır olduğunu göstərdi. On minlərlə gənc vətənpərvərin Vətən torpaqları uğrunda vuruşmaq üçün Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinə müraciət etməsi, cəbhə xəttində əsgər və zabitlərimizin göstərdiyi şücaətlər xalqımızın qəhrəmanlıq nümunələri hesab olunmalıdır. Etiraf edilməlidir ki, Xalqın və Ordunun Prezident və Ali Baş Komandan kimi Sizə dərin inamı Vətən müharibəsinin tarixi qələbə ilə başa çatmasında mühüm rol oynamışdır.

Güclü Ordunun yaradılması, Silahlı Qüvvələrimizin ən müasir döyüş vasitələri ilə təchiz edilməsi, şəxsi heyətin peşəkarlıq səviyyəsinin və hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, Ordu ilə xalqının vəhdətinin təmin edilməsi rəşadətli Azərbaycan Ordusunun möhtəşəm qələbəsinin kökündə dayanan həqiqətlərdir. Azərbaycan Ordusu Vətən müharibəsində qazandığı qələbəsi ilə hazırki dünyanın ən güclü, müasir, hazırlıqlı, yüksək döyüş qabiliyyətinə malik olan orduları sırasında layiqli yer tutduğunu əyani şəkildə sübuta yetirdi. İnanırıq ki, müzəffər Ordumuzun döyüş əməliyyatlarını xüsusi peşəkarlıqla planlaşdıraraq həyata keçirmək strategiyası və taktikası digər ölkələrin ordu rəhbərliyi tərəfindən öyrəniləcək və tətbiq ediləcəkdir.

Möhtəşəm hərbi uğurlarımızda Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasının, ölkəmizin hərtərəfli təbliğatının, Ermənistanın işğalçı siyasətinin Sizin rəhbərliyiniz və bilavasitə iştirakınızla ən mötəbər beynəlxalq tədbirlərdə tutarlı şəkildə ifşa edilməsinin, eləcə də çoxsaylı diplomatik nailiyyətlərimizin xüsusi rolu ayrıca vurğulanmalıdır. Həyata keçirilən diplomatik səylər nəticəsində dünya ictimai rəyində Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycanın haqlı mövqeyinin dəstəklənməsi Vətən müharibəsində əldə etdiyimiz böyük qələbənin beynəlxalq əhəmiyyətini ciddi şəkildə artıran amil hesab edilə bilər.

Döyüş meydanında qazanılan hər bir tarixi qələbənin əsasında lider amili dayanır. Hamılıqla etiraf etdiyimiz gerçəklik ondan ibarətdir ki, Sizin Ümummilli Lider, müdrik dövlət başçısı Heydər Əliyevin siyasi varisi kimi zəngin təcrübəniz və yüksək şəxsi keyfiyyətləriniz, Azərbaycan xalqı arasında və dünyada böyük nüfuzunuz doğma Qarabağ uğrunda savaşda uğurlarımızın əsas şərti olmuşdur. Azərbaycanın üçrəngli bayrağının tezliklə işğal olunmuş torpaqlarımızda, Qarabağda dalğalandırılacağı barədə verdiyiniz vədləri şərəflə yerinə yetirməyiniz Ulu Öndərimizin və Azərbaycan xalqının Sizə olan böyük etimadının nə qədər dərin köklərə malik olmasından xəbər verir.

Biz sevinir və qürur duyuruq ki, rəşadətli Azərbaycan əsgəri Qarabağ savaşı başlayan dövrdən etibarən verilən qurbanların, şəhidlərimizin, qətlə yetirilən günahsız uşaqların, qadınların, qocaların qanını yerdə qoymadı. İnanırıq ki, savaş meydanında düşmənə endirilən sarsıdıcı zərbələrdən və qazanılan möhtəşəm qələbədən onların ruhları şad olur.

Müzəffər Azərbaycan Ordusunun zəfər yürüşü, düşmənin sonadək bütün torpaqlarımızdan qovulması, Qarabağın işğaldan tam azad edilməsi, uzun illər düyünə düşmüş və region üçün təhlükə mənbəyi olan Dağlıq Qarabağ münaqişəsinin uğurla və ədalətlə həll edilməsi həm də yaşadığımız bölgədə sülhə və təhlükəsizliyə əvəzsiz töhfədir. Heç şübhə etmirik ki, savaş meydanında əldə etdiyimiz tarixi qələbənin ardınca Azərbaycanı daha böyük gələcək, daha firavan həyat gözləyir.

Cənab Prezident!

Müqəddəs torpaqlarımız uğrunda Vətən müharibəsində qazandığımız şanlı qələbənin müəllifi də, ilham mənbəyi də Sizsiniz. Bu, Sizin qələbənizdir. Siz Azərbaycanın yeni tarixini yaratdınız. Tarix Sizin adınızı öz şərəf səhifəsinə qızıl hərflərlə həkk edəcəkdir. Siz xalqın qəlbində əbədi yaşayacaqsınız.

Tariximizin ən möhtəşəm qələbəsinin müəllifi kimi Sizi, Ali Baş Komandanı olduğunuz Azərbaycan Ordusunu, rəşadətli əsgər və zabitlərimizi, bütün xalqımızı rəhbərlik etdiyiniz Yeni Azərbaycan Partiyasının çoxminli üzvləri adından səmimi qəlbdən təbrik etmək bizə böyük şərəf və qürur bəxş edir.

Allah Sizi və Azərbaycanı qorusun!



## Mariya Zaxarova: Rusiyanın Qoşulmama Hərəkatında müşahidəçi statusu alması məsələsi üzərində işlər Azərbaycanla sıx əlaqəli şəkildə aparılır

**Rusiya Federasiyasının Qoşulmama Hərəkatında müşahidəçi statusu alması məsələsi üzərində işlər Azərbaycanla sıx əlaqəli şəkildə aparılır.**

AZƏRTAC xəbər verir ki, RF Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bunu Moskvada brifinqdə bəyan edib. O xatırladıb ki, dekabrın 3-4-də Nyu-Yorkda yeni koronavirus infeksiyası pandemiyasına münasibət mövzusunda BMT-nin 31-ci Xüsusi Baş Assambleyası çərçivəsində çıxışlar olacaq.

M.Zaxarova deyib: "Bu sessiyanın çağırılması təşəbbüsünü Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan Prezidenti irəli sürüb. Rusiya Federasiyası lap əvvəldən MDB üzrə tərəfdaşımızın bu ideyasını dəstəkləyib. Biz həmin tədbiri COVID-19-a münasibət baxımından mühüm addım, pandemiyaya qlobal cavabın razılaşdırılmasında BMT-nin aparıcı rolunun təsdiqi kimi baxırıq. Baş Assambleya bundan əvvəl də bu istiqamətdə mühüm qərar qəbul edib - BMT Təhlükəsizlik Şurası koronavirusa qarşı mübarizə üzrə qətnaməni bəyənib".

RF XİN-in rəsmi nümayəndəsi vurğulayıb ki, Moskvanın ehtimalına görə, qarşıdakı xüsusi sessiyada diskussiya konstruktiv xarakter daşıyacaq, pandemiyaya münasibət üzrə göstərilmiş səylərə yekun vuracaq, bizim birgə mübarizəni davam etdirmək üçün siyasi iradənin səfərbər edilməsinə şərait yaradacaq.

M.Zaxarova deyib: "Rusiyanın Qoşulmama Hərəkatında müşahidəçi statusu almasının mümkünlüyü məsələsinə gəldikdə, biz həqiqətən bu məsələni Qoşulmama Hərəkatının fəaliyyətdə olan sədri kimi Azərbaycan ilə sıx əlaqəli şəkildə araşdırırıq. Son illərdə Qoşulmama Hərəkatı ilə, ilk növbədə, bu ümumdünya təşkilatının məkanında çox sıx qarşılıqlı əlaqə formalaşıb. Beynəlxalq gündəlikdəki məsələlərin əksəriyyəti barədə Qoşulmama Hərəkatının üzvləri olan dövlətlərin və Rusiyanın yanaşmalarının yaxın olması və ya üst-üstə düşməsi ona şərait yaradacaq. Bu fonda Rusiyanın statusunun artırılması məntiqəuyğun təşəbbüs hesab edilir və aşkardır ki, bu təşəbbüsün reallaşması Qoşulmama Hərəkatının nizamnamə sənədlərində nəzərdə tutulmuş bir sıra təşkilati və prosedur tələblərə riayət edilməsi ilə bağlıdır".



## Ter-Petrosyan: Ermənistan razılaşma üzrə problemin həllinə hazır olmalıdır

"Rusiya, Ermənistan və Azərbaycan arasında Qarabağla bağlı üçtərəfli razılaşmanın həyata keçirilməsi və yaxın gələcək üçün problemin qəti həlli prosesinə Ermənistanın hazır olması lazımdır" - Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanın bəyanatında deyilir. Bu razılaşma daxili siyasi qarşıdurmaya səbəb oldu, ancaq "bir çatışmazlıq kimi davranılmalı" və bu sənəd sayəsində "müharibənin bitdiyi və yeni qurbanlar olmayacağı" nəzərə alınmalıdır.

Keçmiş prezident, hakimiyyəti və müxalifəti böhranı "müstəsna konstitusiya yolu ilə" həll etməyə çağırıb və ən yaxşı həll yolunun qarşılıqlı razılıq olacağını qeyd edib.

***Elçin***

## AZƏRTAC ilə Qətər KİV-lərinin sıx əməkdaşlıq əlaqələri məmnunluq doğurur

Noyabrın 13-də Qətər dövlətinin ölkəmizdəki səfiri Feysal bin Abdullah Həməd Abdullah Al Hinzab ilə AZƏRTAC-da keçirilən görüşdə Azərbaycan həqiqətlərinin ərəb ölkələrinin xəbər agentliklərində obyektiv işıqlandırılmasının əhəmiyyətinə toxunulub, AZƏRTAC-ın Qətər KİV-ləri ilə getdikcə genişlənən əməkdaşlıq əlaqələrindən məmnunluq ifadə olunub.Qeyd edilib ki, AZƏRTAC-la Qətər Xəbər Agentliyi (QNA) arasında 2011-ci ildə imzalanan Anlaşma Memorandumuna əsasən mütəmadi informasiya mübadiləsi həyata keçirilir. AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov Qətər KİV-lərinin Azərbaycanın Vətən müharibəsi barədə obyektiv xəbərlər yaymasını, bütövlükdə Qarabağ münaqişəsinə ədalətli yanaşmasını yüksək qiymətləndirib.



Qətərin Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu bildirən səfir dövlət başçılarının ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinə xüsusi önəm verdiklərini diqqətə çatdırıb. Qeyd olunub ki, Azərbaycanın təbii imkanları, inkişaf etmiş infrastrukturu, ən əsası isə burada hökm sürən sabitlik və əmin-amanlıq dünyanın bir çox ölkələrindən, o cümlədən Qətərdən turistləri özünə cəlb edir.

Feysal Al Hinzab vurğulayıb ki, Qətər Azərbaycanın ərazi bütövlüyünü və Qarabağ münaqişəsinin həllində ədalətli mövqeyini birmənalı olaraq dəstəkləyir, bu yolda qazandığı qələbələri sevinclə qarşılayır. Azərbaycan həqiqətlərinin dünyaya, o cümlədən ərəbdilli ictimaiyyətə çatdırılmasında informasiya mübadiləsinin əhəmiyyətini vurğulayan səfir AZƏRTAC-ın ərəb və ingilis dillərində yaydığı xəbərlərin ölkəsində maraqla izləndiyini deyib. Bildirib ki, mərkəzi ofisi Qətərin paytaxtı Dohada yerləşən "əl-Cəzirə" telekanalı Qarabağda aparılan hərbi əməliyyatlarla bağlı reportajlarında çoxmilyonlu tamaşaçılarını münaqişənin səbəbləri, Azərbaycanın ədalətli mövqeyi barədə də məlumatlandırıb.

Qətər səfiri AZƏRTAC və "əl-Cəzirə"nin beynəlxalq informasiya məkanında rolunu nəzərə alaraq, bu iki media qurumu arasında daha sıx əməkdaşlıq yaradılmasının vacibliyini vurğulayıb, bununla bağlı təkliflərini səsləndirib.

# Türkiyə və Rusiyanın sülhyaratma missiyası fonunda Fransa və Kanadanın qərəzli münasibəti

*Heç bir bəyanat, açıqlama Azərbaycan Ordusunun gücü və Prezident İlham Əliyevin qətiyyətli iradəsi ilə bərpa olunan ədalətə təsir etmək gücündə deyil*

***Noyabrın 10-da Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin birgə imzaladıqları bəyanatla Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu. Beləliklə, Ermənistanın növbəti hərbi təxribatından sonra Azərbaycanın həyata keçirdiyi əks-hücum əməliyyatı nəticəsində Paşinyan hərbi kapitulyasiyanı qəbul etməyə məcbur oldu.***

### Türkiyə-Rusiya sülhyaratma missiyası Dağlıq Qarabağda davamlı sülhə zəmin yaradacaq

Dünyada hər hansı münaqişədə əldə olunan razılaşmadan sonra bölgədə sülhü və təhlükəsizliyi təmin etmək, sülhə qarşı ola biləcək hər hansı təhdidlərin qarşısını almaq, mövcud anlaşılmazlıqların qarşılıqlı anlaşma yolu və hüquqi müstəvidə həllinə nail olmaq üçün sülhməramlı qüvvələrin cəlb olunması təcrübəsi geniş yayılıb. Dağlıq Qarabağ münaqişəsində də davamlı sülhə nail olmaq üçün bu təcrübəyə müraciət edildi. Bölgədə sülhün bərqərar olması istiqamətində Türkiyə və Rusiya sülhməramlıları birgə çalışacaqlar.

Noyabrın 11-də Türkiyənin və Rusiyanın müdafiə nazirləri Dağlıq Qarabağda atəşkəsə nəzarət üzrə ortaq mərkəzin yaradılmasına dair memorandum imzalayıblar. Bu sənədə əsasən, yaradılan atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədi daşıyır. Mərkəz tərəflərin hərbi əməliyyatların dayandırılması rejiminə uyğunluğuna etibarlı nəzarət etməyə imkan verəcək, həmçinin münaqişənin həlli üçün möhkəm zəmin yaradacaq. Həmçinin Azərbaycan ərazisində, atəşkəs rejiminə əməl olunması barədə məlumat toplayacaq, ümumiləşdirəcək və yoxlayacaq. Mərkəz müqavilələrin pozulması ilə bağlı hər hansı şikayət, sual və ya narahatlığın araşdırılması ilə məşğul olacaq.

Qeyd edək ki, missiyanı həyata keçirəcək Türkiyə və Rusiya Azərbaycan ilə əlaqələrə böyük önəm verən ölkələrdir. Sentyabrın 27-də hərbi əməliyyatların başladığı ilk gündən Azərbaycanın yanında olduğunu ən yüksək səviyyədə bəyan edən qardaş Türkiyə hər zaman bütün məsələlərdə ölkəmizlə həmrəylik nümayiş etdirib. Azərbaycan və Türkiyənin birgə təşəbbüsü ilə icra olunan qlobal layihələr bu gün regionumuzun inkişafında önəmli rola malikdir. Son proseslərdə də Türkiyə Azərbaycana siyasi və mənəvi dəstəyini ifadə edib. Bununla yanaşı, Türkiyə artıq dünyada da böyük nüfuza malik ölkə kimi qəbul olunur və regionda onun təsir imkanları danılmazdır.

Dünyada və regionumuzda əsas güclərdən hesab olunan Rusiyanın Azərbaycan ilə münasibətləri də strateji tərəfdaşlıq səviyyəsindədir. Ölkələrimiz bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinə malikdirlər.

Türkiyə və Rusiya arasında əməkdaşlıq, eləcə də prezidentlər Rəcəb Tayyib Ərdoğan və Vladimir Putinin mütəmadi təmasları, əldə olunan razılaşmalar iki ölkə arasındakı münasibətləri daha da yaxınlaşdırıb.



Bütün bunlar deməyə əsas verir ki, qarşıdakı 5 il ərzində Rusiya-Türkiyə sülhyaratma missiyası öz vəzifəsini icra etməklə Dağlıq Qarabağda davamlı sülhün bərqərar olmasını təmin edəcək.

### Fransa və Kanada: Tarixi sülhə qərəzli münasibət bəsləyən ölkələr

Artıq Dağlıq Qarabağ münaqişəsi sona çatır. İllərdir işğal altında olan Azərbaycan torpaqları tam şəkildə işğaldan azad edilir və ölkəmizin ərazi bütövlüyü bərpa olunur. Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatlarının nəticəsində tarixi ədalətin bərpa olunması, sülhün əldə edilməsi bəzi erməni-pərəst mövqe sərgiləyən ölkələri ciddi narahat edir.

Fransa və Kanada xarici işlər nazirləri səviyyəsində verilən bəyanatlar bu ölkələrin ermənipərəst mövqeləri ilə yanaşı, bölgədə dayanıqlı sülhün təmin olunmasına nə dərəcədə istəkli olmalarını da sual altında qoyur. Birincisi, Fransanın ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi hər hansı ölkənin maraqlarından çıxış etməsi yolverilməzdir. Digər tərəfdən, ötən illər ərzində Fransa münaqişənin beynəlxalq hüququn normaları çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun həllinə hər hansısa töhfə vermədiyi halda əldə olunan sülhə niyə qərəzli yanaşma nümayiş etdirir.

Bu məsələyə münasibət bildirən Prezidentin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib: "Azərbaycan və Rusiya prezidentləri və Ermənistanın baş nazirinin birgə bəyanatının qəbul edilməsində Fransanın hər hansı rolu olmayıb. Yəqin ki, Fransa Rusiyanın bu məsələdə rolundan qısqanclıq keçirir. Ermənistan baş nazirinin bu sənədi imzalaması artıq hər şeyi deyir. İndi Fransa ermənilərdən daha çox erməni olmağa cəhd göstərir".

Digər tərəfdən, Türkiyənin də münaqişənin həllində rolu və sülhməramlı missiyada iştirakı təbii ki, Fransanı narahat edir. Lakin Prezidentin köməkçisinin də qeyd etdiyi kimi, Paşinyan sənədi imzalayıb, onun bundan başqa çıxış yolu da yox idi.

Hərbi əməliyyatların ilk günlərindən ermənipərəst mövqe sərgiləyən Fransanın və Kanadanın bu cür yanaşmaları hərbi proseslər zamanı heç bir təsir gücünə malik olmadı. Fransanın bu cür yanaşmasına isə ən gözəl cavabı Azərbaycan Prezidenti verdi: "Əgər Fransa Dağlıq Qarabağ üçün öz müqəddəratını təyinetmə istəyirsə, qoy onlar demək olar ki, sakinlərinin yarısı ermənilərdən ibarət olan Marsel şəhərini onlara versinlər və onlara Dağlıq Qarabağ respublikası elan etməyə icazə versinlər və qoy onlara müstəqillik versinlər".

Hazırkı sülh dövründə də bu bəyanatlar heç bir çəkiyə malik deyil. Sadəcə olaraq, Emmanuel Makron və onun hökuməti indidən erməni lobbisinin də böyük təsir imkanı olan 2022-ci il seçkilərinə hazırlaşır və bu açıqlamalar da indidən erməni lobbisinin dəstəyini almağa hesablanıb.

Heç kim unutmasın ki, Azərbaycan Ordusunun gücü və Prezident İlham Əliyevin qətiyyətli iradəsi sayəsində artıq Dağlıq Qarabağ münaqişəsi öz ədalətli həllini tapıb. Beləliklə, heç bir bəyanat, açıqlama əldə olunan Qələbəmizə təsir etmək gücündə deyil.

***Əsəd Məmmədov***
***AZƏRTAC-ın redaksiya müdiri***

# İordaniyalı nazir: Bölgədə dayanıqlı sülhün təmin olunması üçün beynəlxalq hüquq normalarına hörmət edilməsi vacibdir




Noyabrın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İordaniya Haşimilər Krallığının xarici işlər və mühacir məsələləri naziri Əymən Əs-Safadi arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər arasında bölgədəki son vəziyyət və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı üçtərəfli bəyanatın imzalanması məsələsi ətrafında fikir mübadiləsi aparılıb. Nazir Ceyhun Bayramov birgə bəyanatın beynəlxalq hüquq normalarına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslandığını vurğulayıb.

İordaniyanın xarici işlər və mühacir məsələləri naziri Əymən Əs-Safadi münaqişə bölgəsində tam atəşkəs və bütün hərbi əməliyyatların dayandırılmasını elan edən razılaşmanı alqışlayıb. Bölgədə dayanıqlı sülhün təmin olunması üçün beynəlxalq hüquq normalarına hörmət edilməsinin vacibliyini vurğulayıb.Tərəflər, habelə qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər.

# Eduard Şarmazanov: "Bu hakimiyyət tarixin zibilliyində yer alacaq"

***"Mövcud bu hakimiyyət, erməni xalqının tarixinin zibilliyində yer alacaq". SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri Ermənistanın "Respublika" partiyasının mətbuat katibi Eduard Şarmazanov öz Facebook səhifəsində yazıb.***



Məlumatda bildirilir ki, partiyanın mətbuat katibi Xüsusi İstintaq Xidmətinə dəvət edilib. Özünün sosial şəbəkə hesabında Eduard Şarmazanov iki il yarımdır mübarizə apardığını və millətçilik əleyhinə və məğlubiyyətə qarşı mübarizə aparacağını yazıb.

"Saxlanılmalarla, həbslərlə qorxuda bilməzlər. Bu hakimiyyət, Ani səltənətini düşmənə miras olaraq qoyan Baqratidlər və Qarsı təslim edən Hovhannes-Smbat kimi, oraya, erməni xalqının tarixinin zibil qutusuna düşəcək. Qələbə vəd edən, ancaq müharibə və məğlubiyyət gətirən bir populist könüllü və sarsıntı olmadan getməlidir", deyə Eduard Şarmazanov bildirib.



# Erməni terroruna qurban gedən daha bir azərbaycanlı

Polşada azərbaycanlı Müşfiq İsmayılov ermənilər tərəfindən qətlə yetirilib. SİA xəbər verir ki, cinayətkarlar hadisəni törədəndən sonra meyiti meşəyə apararaq asıblar. Meyit bir neçə gün meşədə qalıb. Daha sonra yerli sakinlər tərəfindən aşkarlanıb. Dərhal yerli polisə xəbər verilib. Cəsəd çıxarılıb və morqa göndərilib. Müşfiq İsmayılovun nəşi hələ ki, qohumlarına təhvil verilməyib. Yaxınlarının sözlərinə görə, M.İsmayılov avtoqəzada valideynlərini itirib. O, çox savadlı və vətənpərvər insan olub. Polşada tək yaşayırmış. İlkin versiyaya görə, ermənilər Müşfiqi Azərbaycana dəstək mitinqinə qatılanda izləyiblər və ondan intiqam almağa qərar verdikdən sonra dəhşətli qətli törədiblər.

# Ermənistan rəhbərliyi 44 gün ərzində o qədər yalan danışıb ki, indi o yalanlar üzə çıxdıqca ölkə ictimaiyyəti əsl şok yaşayır

***Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıdakı 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan yaralı hərbçilərimizlə görüşərək onlara təşəkkürlərini bildirib, Vətən müharibəsində Qələbənin qazanılmasında müstəsna xidmətlərini qeyd ediblər.***

Görüşdə 8 hərbçimiz iştirak edirdi, ancaq onlar, əlbəttə, bütün yaralı hərbçilərimizin hiss və həyəcanına sahib idilər. Şanlı Ordumuzun Müzəffər Ali Baş Komandanı onların timsalında bütün Silahlı Qüvvələrimizin, Silahlı Qüvvələrimizin timsalında ölkə vətəndaşlarının, dünya azərbaycanlılarının görüşünə gəlmişdi. Yaralı hərbçilərimiz qarşısındakı tarixi çıxış isə demək olar hamıya, hər kəsə ünvanlanmışdı. Qələbəmizə dostlar sevindi, düşmənlər xar oldu.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva deyib.

Komitə sədri diqqətə çatdırıb ki, Prezident İlham Əliyev hərbçilərimizlə görüşündə məcburi köçkünlərin tezliklə öz doğma dədə-baba torpaqlarına qayıdacaqlarını deyib. Dövlətimizin başçısı bildirib ki, soydaşlarımızın doğma torpaqlarına qayıtmaları üçün Azərbaycan dövləti əlindən gələni edəcək.



"Döyüşlərin getdiyi 44 gün ərzində hərb meydanı ilə yanaşı, diplomatik-siyasi meydanda mübarizəyə bilavasitə rəhbərlik edən, nüfuzlu xarici media orqanlarına 30-dan çox müsahibə verən, nümayəndə heyətlərini qəbul edən Prezident İlham Əliyev hərbçilərimizlə görüşündə Vətən müharibəsinin nəticələrini, məntiqi sonluğunu öz əsgər və zabitləri ilə bölüşdü.

Fikir verin, bu günlərdə düşmən cəbhəsində nələr baş verir? Onların ali baş komandanı nəinki hərbçilər qarşısında çıxış edə bilir, heç harada olduğunu da açıqlaya, iş yerinə gələ bilmir. Öz xalqına, dünya ictimaiyyətinə ənənəvi erməni yalanları və özünəməxsus yeni hiylələrlə o qədər etibarsızlıq ovqatı aşılayıb ki, artıq nə etsə, öz əleyhinə çevrilir. "Guya demokrat" Paşinyan Sorosun siyasi layihəsi idi, indi İrəvanın mərkəzində Soros fondunun qərargahı ermənilər tərəfindən dağıdılır. Guya "yenilməz erməni ordusu"nun komandanı idi, həmin ordunun da beli qırılıb, nə sağalda bilmirlər, nə də aparıb basdırmağa ehtiyac duymurlar, yiyəsiz qalıb", - deyə Q.Paşayeva qeyd edib.

Deputat bildirib ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi 44 gün içində siyasili, hərbçili o qədər yalan danışıb, indi o yalanlar gün üzünə çıxdıqca erməni ictimaiyyəti əsl şok yaşayır. Doğrudur, Paşinyan, onun kimi düşünən bəziləri hələ də yalan danışmaq limitinin tükənmədiyi qənaətindədirlər.

Q.Paşayevanın sözlərinə görə, üçtərəfli birgə bəyanatın mahiyyətini təhrif etməyə, guya Ermənistanın nəsə əldə etdiyi illüziyasını yaratmağa cılız cəhdlər göstərilir. Lakin bu xırdalıqlar "böyük Ermənistan" xülyası ilə yaşayanların psixoloji vəziyyətini düzəltmək gücündə deyil. Birgə Bəyanatın 9-cu bəndində deyilir: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir".

Deputat diqqətə çatdırıb ki, bəyanatın xüsusilə 5-ci bəndinin Ermənistanda, dünya erməniliyində hələ çox müzakirə ediləcəyi şübhəsizdir. Şübhəsiz, bu bəndə uyğun olaraq, qardaş Türkiyənin masaya və əraziyə daxil olması ermənilərin qətiyyən arzulamadığı, amma rəsmən qəbul etdiyi həqiqətdir.

# Arayik Arutyunyan: "Müharibəni dayandırmağı şəxsən xahiş etdim"



Qondarma rejim prezidenti Arayik Arutyunyan bu gün parlament fraksiyaları ilə görüşüb. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə Arutyunyan özünün Facebook səhifəsində yazıb.

"Biz mövcud hərbi-siyasi vəziyyəti və üçtərəfli müqavilənin müddəalarını müzakirə etdik. Başqa şeylərlə yanaşı, şəxsən Ermənistanın baş nazirinə də hərbi əməliyyatların dayandırılması üçün səy göstərməsi xahişi ilə müraciət etdiyimi təsdiqlədim. Qərar hərbi vəziyyət nəzərə alınaraq verildi. Ermənistan Silahlı Qüvvələrin rəhbərliyi də buna ehtiyac olduğunu israr etdi", deyə Araik Arutyunyan öz social şəbəkə hesabında paylaşıb.

"Müharibənin davam etməsi, Xankəndinin, digər şəhər və kəndlərin dağılması və minlərlə hərbçinin mühasirəyə alınması da daxil olmaqla daha çox insan itkisinə və ərazi itkilərinə səbəb olacağı demək idi və müəyyən ciddi problemlərimiz də var idi", deyə qondarma rejim rəhbəri Arutyunyan bildirib.

# Sinan Oğan: Azərbaycanın qazandığı tarixi Qələbə türk dünyasına əvəzsiz hədiyyədir

Bu şanlı zəfəri bizlərə qazandıran Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev başda olmaqla, bütün Azərbaycan xalqını və qəhrəman Ordumuzu təbrik edir, şəhid övladlarımıza rəhmət, yaralılara şəfa diləyirəm. Azərbaycanın qazandığı bu Qələbə bütün türk dünyasının zəfəridir.



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə Böyük Millət Məclisinin sabiq deputatı Sinan Oğan ifadə edib.

Qazanılan tarixi Qələbəni Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin türk dünyasına əvəzsiz hədiyyəsi kimi dəyərləndirən Sinan Oğan deyib: "İki böyük xəyalımız var idi. Onlardan biri işğal altındakı torpaqların azad olunması, digəri isə türk dünyası arasında birbaşa əlaqənin qurulması idi. Bir zəfərlə bu iki xəyalın hər ikisi gerçəkləşdi".

Sinan Oğan əminliklə ifadə edib ki, işğaldan azad olunan ərazilərin bərpası və qaçqınların öz yurdlarına qayıdışı tezliklə və uğurla başa çatacaq.

# Bundestaqın deputatı: Bir ölkənin ərazisinin başqa ölkə tərəfindən hərbi işğalı beynəlxalq hüquqa ziddir

Almaniya Bundestaqının Solçular fraksiyasının deputatı, ATƏT Parlament Assambleyasında Almaniya nümayəndə heyətinin üzvü, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədr müavini Helin Evrim Zommer Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı bəyanat verib.




AZƏRTAC xəbər verir ki, deputat Ermənistan ilə Azərbaycan arasında imzalanan atəşkəs razılaşmasını alqışlayıb, bunun regiondakı insanlar üçün yaxşı xəbər olduğunu və döyüşlərin getdiyi bölgədə humanitar fəlakətin qarşısını aldığını bildirib.

Deputat, eyni zamanda, Dağlıq Qarabağ uğrunda müharibənin münaqişələrin dondurulmasının kifayət etmədiyi dərsini verdiyini, problemlərin həlli üçün fəal sülh siyasətinə ehtiyacın olduğunu diqqətə çatdırıb. Vurğulayıb ki, başqa dövlətin ərazisinin hərbi işğalı və birtərəfli ayrılmalar beynəlxalq hüquqa ziddir və sülhə maneədir.

Helin Evrim Zommer qeyd edib ki, AFR hökuməti Minsk qrupunun üzvü kimi passivlikdən əl çəkməli, Ermənistan ilə Azərbaycan arasında sülh prosesi üçün fəal çalışmalıdır. Üçüncü dövlətlər ATƏT kimi sülh diplomatiyasının əsaslarından faydalanmalı və sülh prosesində fəal şəkildə iştirak etməlidirlər. Bu mənada, AFR hökuməti də Minsk qrupu çərçivəsində öz məsuliyyətinə uyğun davranmalı və iştirakçı dövlətləri sülh prosesində dəstəkləməlidir.

# Türkiyə və Rusiya heyətləri Qarabağda atəşkəsdən sonrakı vəziyyəti müzakirə ediblər

Ankarada Türkiyə və Rusiya heyətləri arasında Qarabağda atəşkəsdən sonra həyata keçiriləcək fəaliyyətlər, eləcə də İdlib başda olmaqla, Suriyadakı vəziyyət müzakirə olunub.AZƏRTAC xəbər verir ki, məlumatı Türkiyə Milli Müdafiə Nazirliyi yayıb.Bildirilir ki, texniki məsələlərə dair görüş noyabrın 14-də davam edəcək.



# “Eşq olsun Azərbaycan Prezidenti, Silahlı Qüv Komandanı İlham Əliyevə, Eşq olsun müzəffər Azə



## Ali Baş Komandan İlham Əliyevə və Azərbaycan xalqına Milli Məclisin müraciəti

Zati-aliləri möhtərəm cənab Prezident!

Əziz Azərbaycan xalqı!

Son 100 ildən artıq dövrdə Azərbaycan xalqı “böyük Ermənistan” yaratmaq xülyasına düşmüş erməni şovinist dairələrinin etnik təmizləmə, soyqırım və işğalçılıq siyasətinin fəlakətli nəticələrini mütəmadi yaşamalı olmuşdur. Mərhələ-mərhələ həyata keçirilən bu siyasət ötən əsrin əvvəllərində Cənubi Qafqazda yüz minlərcə azərbaycanlının və digər xalqların nümayəndələrinin etnik və dini mənsubiyyətinə görə qətlə yetirilməsinə gətirib çıxarmışdır.

Çar Rusiyasının süqutunun ardınca keçmiş İrəvan xanlığının (sonrakı İrəvan quberniyasının) ərazisində erməni dövləti yaradılmışdır. Ermənistanda və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşevik rejiminin əli ilə Azərbaycan torpaqlarının daha bir hissəsi, o cümlədən Qərbi Zəngəzur, Dərələyəz mahalı, Qazax qəzasının dağlıq hissəsi və digər yerlər Ermənistana verilmiş, nəticədə onun ərazisi 9 min kvadrat-kilometrdən 29,8 min kvadrat-kilometrə çatdırılmışdır.

Ermənistan ərazisində qalan, ata-baba torpaqlarında elliklə yaşayan yüz minlərcə azərbaycanlıya muxtariyyət verilmədiyi halda, Azərbaycan ərazisində sayı onlardan dəfələrlə az olan ermənilər üçün 1923-cü ildə qondarma “Dağlıq Qarabağ Muxtar Vilayəti” təşkil edilmişdir. Beləliklə, erməni şovinistlərinin Azərbaycana qarşı gələcək ərazi iddiaları üçün meydan açılmış, Cənubi Qafqazda baş verəcək yeni faciələrin əsası qoyulmuşdur. 1948-1953-cü illərin zorakı deportasiyaları nəticəsində Ermənistan SSR-dən yarım milyona yaxın azərbaycanlı qovulmuş, onların bütün əmlakı talan edilmişdir.

1991-ci ildə Sovet İttifaqının süqutundan sonra geniş miqyas almış işğalçılıq müharibəsinin gedişində Azərbaycan Respublikası ərazisinin 20 faizi, yəni Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayon - Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. 20 mindən çox azərbaycanlı qətlə yetirilmiş, on minlərcə soydaşımız yaralanmış və əlil olmuşdur. Ermənistan ərazisindən və Azərbaycanın işğal edilmiş bölgəsindən 1 milyondan çox azərbaycanlı qovulub didərgin salınmışdır.

İşğalçılıq müharibəsi zamanı erməni şovinistləri azərbaycanlı əhaliyə qarşı bir sıra soyqırım cinayətləri törətmişlər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində əsrin ən dəhşətli faciələrindən biri baş vermişdir. Soyqırım aktı nəticəsində 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilmiş, 487 nəfər şikəst edilmiş, 1275 sakin girov götürülərək amansız işgəncələrə məruz qalmışdır. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyildir.

Ermənistan Respublikasının etnik təmizləmə, soyqırım və işğalçılıq siyasətinə qarşı müqavimət cəbhəsi 1993-cü ilin iyun ayında böyük siyasi və dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra təşkil edilmişdir. Ordu quruculuğu və silahlı qüvvələrin möhkəmləndirilməsi sahəsində görülən düşünülmüş tədbirlər Ermənistan hərbi birləşmələrinə ağır zərbələr endirməyə və işğal altında olan bəzi əraziləri, o cümlədən Füzuli rayonunun strateji əhəmiyyət daşıyan Horadiz qəsəbəsini azad etməyə imkan vermişdir. Azərbaycanla silah dili ilə danışmağın daha mümkün olmadığını görən Ermənistan Respublikası 1994-cü ilin mayında atəşkəs imzalamağa məcbur olmuşdur.

Beləliklə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla aradan qaldırılması üçün mötəbər beynəlxalq təşkilatların köməyi ilə aparılan danışıqlara əlverişli şərait yaranmış, həmin təşkilatların qəbul etdikləri sənədlər münaqişənin nizama salınmasının hüquqi bazasının ayrılmaz hissəsini təşkil etmişdir.

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrdə, eləcə də BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi 62/243 nömrəli qətnamədə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı birmənalı şəkildə təsdiqlənmiş və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilmişdir. Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının, İslam Əməkdaşlığı Təşkilatının, Qoşulmama Hərəkatının, Avropa İnsan Hüquqları Məhkəməsinin və digər mötəbər beynəlxalq qurumların müxtəlif illərdə qəbul etdikləri sənədlərdə də Ermənistan silahlı qüvvələrinin işğal olunmuş bütün ərazilərdən çıxarılması tələb edilmiş, yurdlarından didərgin düşmüş şəxslərin öz torpaqlarına geri dönməsi hüququ təsdiq edilmişdir.

Münaqişənin nizama salınması üçün vasitəçilik səyləri göstərən ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin, yəni Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Fransanın dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir, dəyişməlidir və məsələ tezliklə öz həllini tapmalıdır. Həmsədrlərin irəli sürdüyü və Azərbaycan tərəfindən qəbul edilmiş Madrid prinsipləri də münaqişənin nizama salınmasına yönəlmişdir. Ümumiyyətlə, uzun illər boyu aparılan danışıqlarda Azərbaycan tərəfi daim təmkinli davranaraq, sülh prosesinə sadiqlik nümayiş etdirmiş, işğalın aradan qaldırılmasına, ölkəmizin ərazi bütövlüyünün bərpasına, didərgin düşmüş soydaşlarımızın doğma yurdlarına qayıtmasına hər hansı şəkildə kömək göstərə biləcək bütün təkliflərə anlayışla yanaşmışdır.

Təəssüf ki, münaqişənin həll edilməsi üçün göstərilən beynəlxalq səylər Ermənistanın qeyri-konstruktiv və pozucu mövqeyi üzündən heç bir səmərə verməmişdir. Bu dövlətin rəhbərliyi cəzasız qalmasından, bölgədə sülh və sabitlik yaradılmasında marağı olmayan xarici qüvvələrin dəstəyindən istifadə edərək, aparılan danışıqlar prosesini pozmaq və Azərbaycan torpaqlarının işğalını əbədiləşdirmək üçün müntəzəm cəhdlər göstərmişdir.

2016-cı ilin aprel ayının əvvəllərində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat sülh prosesinə ciddi zərbə vurmuşdur. Azərbaycanın ön mövqelərinin və cəbhə xətti boyunca yerləşən yaşayış məntəqələrinin güclü artilleriya atəşinə tutulması nəticəsində 2 nəfər dinc sakin həlak olmuş, 10 nəfər yaralanmışdır. Azərbaycan Silahlı Qüvvələri əhalinin təhlükəsizliyini təmin etmək üçün cavab tədbirləri görməyə məcbur olmuşlar. Dörd gün davam edən döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə başa çatmışdır.

Təəssüf ki, 2016-cı ilin aprel döyüşlərindən dərs almayan Ermənistan rəhbərliyi pozuculuq hərəkətlərindən əl çəkməmişdir. 2018-ci ilin aprelində Ermənistanda baş verən “məxməri” inqilabdan və hakimiyyət dəyişikliyindən sonra Azərbaycana qarşı təxribatlar daha geniş vüsət almışdır.

Ermənistan rəsmiləri öz bəyanatları və davranışları ilə sübut etmişlər ki, bu dövlət nəinki işğal altında olan əraziləri qaytarmağa hazırlaşmır, əksinə, Azərbaycanın yeni ərazilərini işğal etmək niyyəti güdür. Dağlıq Qarabağda yaradılmış qondarma rejimin başçısının Şuşada “andiçmə” mərasiminin keçirilməsi, oyuncaq qurumun “parlamentinin” Şuşaya köçürülməsi, işğal olunmuş ərazilərə Ermənistandan yeni yol çəkilməsi, qanunsuz məskunlaşdırma siyasətinin genişləndirilməsi, danışıqların formatını dəyişdirməyə cəhdlər göstərilməsi, danışıqları davam etdirmək üçün Azərbaycan qarşısında üzdəniraq “7 şərt” qoyulması, Ermənistanın dövlət başçısının irəli sürdüyü “Qarabağ Ermənistandır və nöqtə”, Ermənistan müdafiə nazirinin səsləndirdiyi “yeni ərazilər üçün yeni müharibə” iddiaları işğalçı dövlətin rəhbərliyinin əsl niyyətlərini üzə çıxarmışdır.

Bu məsuliyyətsiz davranış və bəyanatlara beynəlxalq təşkilatlar, eləcə də işğalçını sülhə sövq etməli olan Minsk qrupunun həmsədr ölkələri tərəfindən heç bir münasibət bildirilməməsi Ermənistan Respublikasının daha çox əl-qol açmasına gətirib çıxarmışdır.

2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələri atəşkəsi kobudcasına pozaraq, cəbhə xəttindən uzaqlarda, dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini artilleriya atəşinə tutmağa başlamışlar.

İriçaplı toplardan, raket qurğularından, müxtəlif növ atıcı silahlardan və zirehli texnikadan istifadə edən Ermənistan silahlı qüvvələrinin həmlələri iyulun 16-dək davam etmişdir. Düşmənin silahlı təcavüzünün qarşısını almaq üçün Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi cəza tədbirləri nəticəsində işğalçıların müxtəlif təyinatlı hərbi texnikası, döyüş vasitələri, komanda məntəqəsi, müdafiənin dərinliyindəki ehtiyatları və yüzlərcə canlı qüvvəsi məhv edilmişdir. Azərbaycanın yeni ərazilərini işğal etmək üçün düşmənin göstərdiyi bütün cəhdlərin qarşısı qətiyyətlə alınmışdır.

2020-ci ilin avqustun 23-də Azərbaycan və Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının Goranboy rayonu istiqamətində təmas xəttində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupu təxribat törətməyə cəhd etmişdir. Azərbaycan silahlı qüvvələrinin bölmələri tərəfindən görülən qəti tədbirlər nəticəsində təxribatın qarşısı alınmış, təxribat qrupunun başçısı yaxalanmışdır.

Son illərdə Azərbaycan Ordusundan aldığı qüvvətli zərbələrdən lazımi nəticələr çıxarmayan Ermənistan rəhbərliyi 2020-ci il sentyabrın 27-də növbəti planlaşdırılmış təxribata əl atmışdır. İşğalçı ölkənin silahlı qüvvələri müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək Azərbaycanın yaşayış məntəqələrini və hərbi mövqelərimizi bir neçə istiqamətdən atəşə tutmuşlar. Mülki əhali və hərbi qulluqçular arasında həlak olan və yaralananlar olmuşdur. Qeyd edilməlidir ki, Ermənistanın bu xaincəsinə hücumu işğalçı ölkənin hərbi və siyasi rəhbərliyinin beynəlxalq hüquqa saymazyana münasibətinin növbəti təzahürü, Azərbaycanla aparılan sülh danışıqlarını pozaraq münaqişəni öz xeyrinə birdəfəlik həll etmək niyyətinin yeni ifadəsi olmuşdur.

Düşmənin hücumunun cavabında Azərbaycan Respublikası BMT-nin Nizamnaməsinə uyğun özünümüdafiə hüququndan istifadə edərək, təcavüzkarı sülhə məcbur etmək məqsədi ilə əks-hücum əməliyyatına başlamışdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gün davam edən əməliyyat gedişində möhtəşəm qələbələr əldə edərək dünya hərb tarixinə yeni şanlı səhifələr yazmışdır. Silahlı Qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı son 17 il-

# ...ələrin Ali Baş ...baycan Ordusuna!”

də həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında təcəssümünü tapmışdır.

Düşmənin uzun illər ərzində qurduğu, keçilməz hesab edilən müdafiə xətləri yarılmış, Ermənistanın hava hücumundan müdafiə sistemi və hərbi hava qüvvələri sıradan çıxarılmışdır. İşğalçı qüvvələrə ağır zərbələr endirilmiş, onların çoxlu sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilmişdir. Ölkəmizin işğal altında olan ərazisinin böyük bir hissəsi, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Şuşa şəhəri, Hadrut qəsəbəsi, ümumən 300-ə yaxın yaşayış məntəqəsi düşmən tapdağından azad edilmişdir.

Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti ilə idarə etdiyi Azərbaycan Silahlı Qüvvələrinin zəfər yürüşü siyasi müstəvidə qazanılan qələbə ilə başa çatmışdır. Azərbaycan Ordusu qarşısında duruş gətirə bilməyəcəyini, iflasa məhkum olduğunu dərk edən düşmən məğlubiyyətini etiraf edərək diz çökmüşdür.

2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli bəyanat 30 ildən artıq davam edən münaqişəyə, Azərbaycan torpaqlarının işğalına son qoymuş, Cənubi Qafqaz bölgəsinin gələcək inkişafına yönələn fəaliyyətin yeni formatını təqdim etmişdir. Bəyanatın müddəalarına uyğun olaraq, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların dayandırılması elan edilmişdir. Bu il dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları mərhələ-mərhələ Azərbaycan Respublikasına qaytarılacaqdır.

Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu 5 il müddətinə Rusiya Federasiyasının sülhməramlı kontingenti yerləşdirilir. Atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır və bu mərkəzdə Rusiya və Türkiyə hərbi qulluqçularının birgə fəaliyyəti nəzərdə tutulur. Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcəkdir.

Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı Ofisinin nəzarəti altında qayıdacaqlar. Hərbi əsirlərin, girovların və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçiriləcəkdir.

Bölgədə bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir.

Tarixi əhəmiyyət daşıyan bu bəyanat çoxillik münaqişə və müharibədə Azərbaycan xalqının şanlı qələbəsini təcəssüm etdirir. Tarixi ədalət öz yerini tutur, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunur.

Bu möhtəşəm qələbəyə görə, möhtərəm cənab Prezident, Sizə sonsuz minnətdarlığımızı bildiririk. Sizin uzaqgörən rəhbərliyiniz ilə Azərbaycan Respublikasının böyük iqtisadi potensialı yaradılmış, müasir hərb nəzəriyyəsinin və praktikasının tələblərinə cavab verən güclü Azərbaycan Silahlı Qüvvələri qurulmuşdur. Sizin dəmir iradəniz, sarsılmaz əzminiz və lider qətiyyətiniz sayəsində həm döyüş meydanında, həm də danışıqlar masasında parlaq nailiyyət qazanılmışdır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüquq normaları və prinsipləri əsasında başa çatdırmaqda, tarixi düşmənə qarşı əsrlik mübarizədə məğlubiyyət sindromunu aradan qaldırmaqda öz inamı, hörməti, məhəbbəti və dəstəyi ilə kömək etmiş əziz xalqımız, sizi böyük Qələbə münasibəti ilə ürəkdən təbrik edirik.

Biz inanırıq ki, uzun illər ərzində ölkəmizin müstəqilliyi və təhlükəsizliyi üçün böyük təhdid mənbəyi olmuş Dağlıq Qarabağ probleminin həlli ilə Azərbaycan Respublikası daha yüksək sürətlə inkişaf edərək, qüdrətli dünya dövlətlərindən birinə çevriləcəkdir. Biz bu yolda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev başda olmaqla xalqımıza yeni-yeni uğurlar arzulayırıq.

Eşq olsun Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə!

**Eşq olsun müzəffər Azərbaycan Ordusuna!**

**Yaşasın Azərbaycan xalqı!**

**Qarabağ Azərbaycandır!**

**(Müraciət Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci il 13 noyabr tarixli iclasında qəbul edilmişdir.)**

# “Azərbaycanın müstəqillik və hərb tarixinə qızıl hərflərlə yazılan qələbə salnaməsi”



**Şəmsəddin Hacıyev**
**YAP Səbail rayon təşkilatının sədri**

Azərbaycan xalqı bu gün sözlə ifadə edilməsi mümkün olmayan misilsiz qələbə sevinci, yüksək fəxarət duyğuları, hədsiz fərəh, qürur hissləri yaşayır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və yenilməz, rəşadətli Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı nəticəsində 10 milyonluq Azərbaycan xalqı 44 gün ərzində 28 ildir həsrətində olduğu doğma Qarabağımızı işğaldan azad etdi, Vətənimizin ərazi bütövlüyü bərpa olundu, müstəqil Azərbaycan əzəli düşməni olan işğalçı Ermənistan üzərində qətiyyətli tarixi qələbə qazandı, onilliklər boyunca Vətən torpağında həlak olan şəhidlərimizin, etnik zəmində xüsusi qəddarlıqla qətlə yetirilən dinc azərbaycanlıların, amansız işgəncələrə məruz qalan günahsız insanlarımızın, körpələrin, qadınların, uşaqların, ahılların doğma yurd-yuvasından didərgin salınan soydaşlarımızın qisası bu faciələri törədən erməni qatillərindən və onların cinayətkar-faşist dövlətindən alındı. Ali Baş Komandan İlham Əliyev Xalq-İqtidar-Ordu birliyinin nəticəsi olan “dəmir yumruğ”u ilə işğalçı Ermənistanın belini qırdı, sözün əsl mənasında “terror dövləti” olan bu kriminal rejimin, ümumilikdə “dünya erməniçiliyi” mifinin başını əzdi, ermənilərin əsl xislətini, həyasız yalanlarını, faşist simasını əsaslı sübutlar və konkret faktlarla bütün dünya ictimaiyyətinə nümayiş etdirdi.

Hər bir azərbaycanlının qəlbində yüksək qürur hissləri yaradan Şanlı və tarixi qələbəmiz Azərbaycan xalqında milli oyanışa, yeni bir dirçəlişə, birliyə səbəb oldu. 44 günlük Vətən müharibəsində Azərbaycan dövləti qətiyyətli qələbə qazandı, işğalçını əzəli torpaqlarımızdan “iti qovan kimi qovdu”. Eyni zamanda bütün Azərbaycan xalqı Prezidentimizin ətrafında dəmir yumruq kimi birləşərək sözün əsl mənasında böyük xalq olduğunu, ulu türk millətinin cəsur, qəhrəman bir boyu olduğunu bir daha sübut etdi, bugünlərdə misilsiz birlik, həmrəylik nümayiş etdirdi və cəmiyyətimizdə mövcud olan Xalq-Lider-Ordu birliyini daha yüksək səviyyəyə qaldırdı. Xalq öz Liderinə ürəkdən inandı və Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqının etimadını əməli fəaliyyəti və şanlı zəfəri ilə hər zaman qeyd etdiyi kimi doğrultdu. Möhtərəm Prezidentimiz öz qətiyyəti, sarsılmaz iradəsi, cəsarəti, Azərbaycana edilən bütün təzyiqlərə məharətlə sinə gəlməsi və son dərəcə mürəkkəb və çətin müharibə şəraitində hərbi meydanda, siyasi arenada, informasiya müharibəsində parlaq qələbələr qazanaraq Azərbaycan xalqına söz verdiyi kimi sona qədər getdi, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi və Vətən torpağı uğrunda şəhid olan bütün oğul-qızlarımızın qisasını aldı. Əminliklə deyə bilərik ki, İlham Əliyev öz adını milli tariximizin son 200 ildə ən şanlı və müzəffər sərkərdəsi kimi Azərbaycan xalqının yaddaşına qızıl hərflərlə əbədi həkk etdi. İlham Əliyev Azərbaycanın ürəyi olan Qarabağın tacı, göz bəbəyi, mədəniyyət paytaxtı Şuşa şəhərini, eyni zamanda 28 ildir ki, işğal altında olan Zəngilan, Qubadlı, Füzuli, Cəbrayıl şəhərlərini, neçə-neçə qəsəbələrimizi, kəndlərimizi, strateji yüksəkliklərimizi, tarixi Xudafərin körpüsünü, bir sözlə Azərbaycanın mənfur düşmən tapdağında olan 20% ərazisini işğaldan azad edən Fateh oldu.

Şanlı Vətən Müharibəsində, İkinci Qarabağ Savaşında qazandığımız bu tarixi qələbədə əlbəttə ki, Azərbaycan Ordusunun, Silahlı Qüvvələrimizin bütün komandir heyətinin, əsgər və zabitlərinin, Azərbaycan hərbiçilərinin misilsiz rolu mütləqdir. Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusu yüksək peşəkarlıq, məharət və fədakarlıq nümayiş etdirərək müasir hərb tariximizin ən şanlı qələbələrini qazandı və XXI əsrin yeni müharibə modelini bütün dünyaya təqdim etdi. İşğaldan azad olunan bütün torpaqlarımızın hər qarışı, ərazi bütövlüyü bərpa olunan Şanlı Azərbaycanın mənfur düşməndən təmizlənmiş torpaqlarında məğrurluqla dalğalanan üçrəngli Azərbaycan bayrağı şəhidlərimizin qanı ilə sulandı. Müqəddəs Azərbaycan torpağını Vətən edən bütün qəhrəmanlarımızın, şəhidlərimizin, qazilərimizin, ön və arxa cəbhədə fədakarlıqla bu işə töhfə verən Azərbaycan hərbiçilərinin, onların valideynlərinin, ailə üzvlərinin, xüsusilə bütün şəhid analarının qarşısında baş əyirik. Bu qələbə sevincimizi, Vətən torpağının azadlığını biz Ali Baş Komandanımıza və Azərbaycan əsgərinə, bu şanlı tarixi qanı, canı ilə yazan şəhidlərimizə borcluyuq. Azərbaycan xalqı 44 günlük Vətən müharibəsinin hər bir günündə düşmənin başına od ələyən, onu əzib keçən, Azərbaycan xalqına hər gün yeni qələbə xəbərləri, yeni azad olunmuş torpaqların zəfər xəbərini bəxş edən Azərbaycan əsgərlərinin hər birinin əziz xatirəsini daim yaşadacaq və uca tutacaqdır.

Bu qədər qısa müddət ərzində yeni əsrin yeni hərb nümunəsini yaradan, mənfur düşmənin illərlə qurduğu, möhkəmləndirdiyi istehkamları, saysız-hesabsız hərbi texnikasını məhv edən və Qarabağı azad edən Azərbaycan Ordusunun müzəffər Ali Baş Komandanı İlham Əliyevin bu möhtəşəm hərbi qələbəsi hələ uzun illər hərbi ekspertlər, tarixçilər, siyasətçilər və s. tərəfindən araşdırılacaq, öyrəniləcək və zəfərlə nəticələnən uğurlu müharibə dastanına çevriləcəkdir.

İşğaldan azad olunan Qarabağda, Azərbaycan torpaqlarında, Şuşada bu gün 28 ildən sonra azan səsləndirilir, Şanlı Azərbaycan bayrağı dalğalandırılır, uzun illərdir ermənilər tərəfindən işğal altında saxlanılan 132 km-lik Azərbaycan-İran sərhədində artıq Azərbaycan sərhədçiləri dayanır, gənc nəslin tarix dərsliklərində haqqında oxuduğu Xudafərin körpüsündə Azərbaycan bayrağı ucalır və Azərbaycan xalqı Qarabağa qayıdır. Müzəffər Ali Baş Komandanımızın sözləri ilə desək: “Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!” Bəli, biz Qarabağa qayıdırıq. Biz işğaldan azad olunan o torpaqları cənnətə çevirəcəyik. Dağıdılmış məscidlərimizi, məktəblərimizi, digər sosial infrastruktur obyektlərimizi yenidən quracağıq, yaradacağıq, tikəcəyik, dağıdılmış iqtisadiyyatı bərpa edəcəyik. Bu bölgədə mövcud olan böyük potensialı iqtisadi dövriyyəyə cəlb edəcəyik. Ərazi bütövlüyü bərpa olunmuş müstəqil Azərbaycanı ən inkişaf etmiş dövlətlərdən birinə çevirəcəyik.

Azərbaycan xalqı xoşbəxt xalqdır, çünki bu xalq müzəffər Ali Baş Komandan İlham Əliyevə inandı və “dəmir yumruğu” ilə şərəfini, milli qürurunu, müqəddəs Vətən torpağının ərazi bütövlüyünü bərpa etdi. Gözün aydın, Vətən! Gözün aydın, Azərbaycan! Gözün aydın, Şuşa, Qarabağ! Möhtəşəm Azərbaycanın şanlı tarixinin yeni salnaməsi başlayır! Yaşasın bu xalqa milli mənliyini, şərəfini, qürurunu qaytaran Ali Baş Komandanımız İlham Əliyev! Yaşasın yenilməz, rəşadətli Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır! Və bu həqiqət əbədidir.

# Kremldən ermənilərə cavab: “Ermənistan yalnız dəhlizdən istifadə edə biləcək”



Kreml Ermənistanın xəyanət barədə ittihamlarına cavab verib. SİA xəbər verir ki, bu cavab Rusiya Federasiyası Prezident Administrasiyası rəhbərinin müavini, Rusiya Federasiyası Prezidenti Vladimir Putinin Mətbuat Katibi Dmitri Peskov tərəfindən bəyan edilib. Onun sözlərinə görə, Moskva Kollektiv Təhlükəsizlik Müqaviləsi (KTMT) üzərindəki öhdəliklərini unutmayıb. Peskov, hələ bir neçə il əvvəl Minsk Qrupu tərəfindən qəbul edilməsi ilə hərbi əməliyyatların qarşısını almağa imkan verəcək düsturların bir həll üçün təklif edildiyini də xatırladıb.

“10 Noyabrda Rusiya, Ermənistan və Azərbaycan rəhbərləri hərbi əməliyyatları dayandırmaq və təmas xəttində, Ermənistanla Dağlıq Qarabağı birləşdirən Laçın dəhlizi boyunca rus sülhməramlılarını yerləşdirmək barədə razılığa gəldilər. Bundan əlavə, tərəflərin razılığına əsasən, 1 dekabr tarixinədək, Qazax, Ağdam, Kəlbəcər və Laçın olmaqla dörd rayonun əraziləri Azərbaycanın nəzarətinə qaytarılacaq. Qarabağla əlaqə üçün Ermənistanın yalnız bir dəhlizdən istifadə edə biləcək”, deyə Dmitri Peskov bildirib.

# Vüqar Rəhimzadə: "Erməni vandalizmi və barbarlığı sərhəd tanımır"



"Nəinki bu gün, bütün yüzilliklər boyu çoxəsrlik tariximizin bu şanlı səhifəsi daim qürur hissi ilə xatırlanacaq və qeyd ediləcək. Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları birgə bəyanatla möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev hərbi sahədəki möhtəşəm uğurlarımızı məharətlə siyasi-diplomatik müstəviyə keçirməyə nail oldu. Bu sənəd Azərbaycanın qələbəsinin təsdiqi olmaqla yanaşı, işğal altında olan digər torpaqlarımızın müharibəsiz, qansız, şəhidsiz geri qaytarılmasını təmin edir. 9 bəndlik bəyanat, orada əksini tapan müddəalar möhtəşəm qələbəmizin təqdimatıdır. Dövlətimizin başçısının qeyd etdiyi kimi, bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz! Həmin bəyanata əsasən, 15 noyabr 2020-ci il tarixinədək Kəlbəcər rayonu, 20 noyabr tarixinədək Ağdam rayonu və Qazaxın işğal altında olan kəndləri, 1 dekabra kimi isə Laçın rayonu qaytarılır. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa şəhərlərində, adları çəkilən rayonların, eyni zamanda, Xocalının, Xocavəndin, Tərtərin, Ağdərənin kənd və qəsəbələrində olduğu kimi, Xankəndidə, Kəlbəcərdə, Ağdamda, Laçında, ümumiyyətlə, işğaldan azad ediləcək bütün ərazilərimizdə də üçrəngli zəfər bayrağımız dalğalanacaq". Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, 30 il düşmən tapdağında olan torpaqlarımız artıq öz tarixi sahiblərinə qayıdır. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Qarabağ bölgəsi sanki yenidən doğulur, canlanır, dirçəlir: "Artıq razılaşmaya uyğun olaraq ermənilərin Kəlbəcəri tərk etdiklərini təsdiqləyən videoreportajlar təqdim olunur. BBC-nin videoreportajında diqqət çəkən məqamlardan biri ermənilərin aparılması mümkün olan hər şeyi, hətta unitazı belə özləri ilə götürmələri, evləri tamamilə dağıtmaları, yandırmaları, ümumiyyətlə, işğal olunmuş ərazilərdə maddi-mədəni sərvətlərimizi talan və qarət etmələridir. Azərbaycanın mədəni irsinə qarşı erməni barbarlığının bir adı var ki, o da vandalizmdir. Dünya erməni vəhşiliyinin ölçüyəgəlməz dərəcəyə yüksəlməsinin fərqindədir. Amma çox təəssüflər olsun ki, yenə də ermənilərin bu vandalizm əməllərinə göz yummaqda davam edir. Bugünümüzün real mənzərəsi budur ki, Azərbaycan dövlətinin qətiyyəti, rəşadətli ordumuzun gücü sayəsində Azərbaycan 30 il o kor gözləri, kar qulaqları açdı, işğalçı Ermənistanı çökdürməklə ona havadarlıq edən dövlətlərə tarix, hüquq və hərb dərsi keçdi".

"Ermənilər işğaldan azad edilmiş ərazilərimizi tərk edərkən özləri ilə apara bilmədikləri hər şeyi yandırır, məhv edirlər" söyləyən V.Rəhimzadə vurğulayıb ki, müharibənin davam etdiyi günlərdə də təqdim olunan videogörüntülərdən onların bizim tarixi torpaqlarımızda bütün tikililəri tamamilə dağıtdıqlarını görərkən, hər kəs onların vandalizm hərəkətlərini pisləməklə yanaşı, bir daha bu reallığın şahidi oldu ki, 90-cı illərin əvvəlində ölkəmizə rəhbərlik edənlərin səriştəsizliyindən, idarəçilik təcrübələrinin yoxluğundan, ordumuzun zəifliyindən bəhrələnərək torpaqlarımızı işğal edən ermənilər elə ilk anlardan bu ərazilərin tarixi sahibinin Azərbaycan olduğunu bildikləri üçün orada tikinti deyil, dağıntı işləri həyata keçiriblər. Dövlətimizin başçısı İlham Əliyev Rusiyanın İnterfaks agentliyinə müsahibəsində bu faktı xüsusi qeyd etmişdir ki, Füzuli şəhərini işğaldan azad edəndə orada bayrağımızı ucaltmaq üçün bircə salamat bina tapa bilmədik: "Təsəvvür edirsinizmi? Bütün şəhərdə, halbuki orada 10 minlərlə insan yaşayırdı. Bircə bina da qalmayıb. Mənə zəng vurdular, dedim ki, bayrağı dirək üzərində qaldırın. Görün, onlar nə ediblər. Ağdamın, Cəbrayıl rayonunun xarabalıqlarına baxın. Hər şey dağıdılıb. Elə bil buradan vəhşilər keçiblər. Elə bil bunlar insan deyilmiş. Onlar hər şeyi sökük-dağıdıblar. Evlərin damlarını, pəncərə çərçivələrini, hətta unitazları da. Bu, sadəcə, quldurluqdur".

Baş redaktor bildirib ki, bu gün Azərbaycan Ordusu möhtəşəm qələbəsi ilə tarixi torpaqlarımızı azad etməklə yanaşı, həm də ermənilərin əsl simasını ortaya qoydu, Ermənistanın işğalçılığı, vandalizmi həyata keçirdiyi siyasətin əsas xəttinə çevirdiyini təsdiqlədi. Düşünürük ki, nəhayət, dünyanın 30 ildən sonra açılan gözləri, eşidən qulaqları ədalət meyarının bundan sonra bütün dövlətlərə eyni mexanizm əsasında tətbiq olunmasına yardımçı olacaq. Quldur, cinayətkar və terrorist bir ölkə - Ermənistan beynəlxalq hüquq çərçivəsində layiq olduğu cəzanı alacaq.

# Varlığı, mahiyyəti heç olanlar



Erməni Ordusunu rüsvayçı şəkildə məğlubiyyətə aparan Ermənistan Müdafiə naziri bu əməlinə görə nəinki özünü güllələmədi, hələ utanmadan kreslosunda oturmaqda davam edir. Bir tarixi xatırlatma etmək istərdik ki, bir zamanlar SSRİ Silahlı Qüvvələri Baş Qərargahının keçmiş rəisi, eks-prezident Qorbaçovun hərbi məsələlər üzrə müşaviri, marşal Sergey Fyodoroviç Axromeyevin cəsədi, Kremlin 14-cü korpusundakı 19 "a" nömrəli ofisdə tapılmışdı və müəyyən edilmişdi ki, bu intihar hadisəsidir. Müəyyən edilmişdi ki, hərbi rəhbər Dövlət Fövqəladə Komitəsinin məğlubiyyətindən, sosializmin və SSRİ-nin özünün süqutu səbəbindən intihar edib.

"Mənim vətənim dağılanda, həyatımda həmişə ən dəyərli hesab etdiyim hər şey məhv olanda yaşaya bilmirəm və bu mənə ölmək hüququ verir", deyə bir not saxlayan Axromeyev vəziyyətlə barışmaması səbəbindən intihar etdiyini bildirib və sədaqətini nümayiş etdirib. Lakin, işğal olunmuş özgə torpaqlarında öz vətəndaşlarının qırğınına səbəb olan, canlı qüvvə, hərbi texnika, silah-sursat, nəticə etibarı ilə böyük həcmdə maliyyə itgisinə rəvac verərək, ölkəsini müflis vəziyyətə, iflasa, rəzil duruma salan, vətəndaş müharibəsi astanasına sürükləyən erməni baş nazir Nikol Paşinyan, onun komandası dörd əllə hakimiyyət kreslolarından yapışıblar və getmək niyyətində də deyillər.

Paşinyan imzaladığı sənədi necə təqdim etməyə çalışsa da, əslində bu, təslim olma aktıdır. Onu da nəzərə almaq lazımdır ki, Paşinyan qərarlarının çoxunu ya hərbçilərin rəyi nəzərə alınmaqla, ya da onların təzyiqi altında verib və bunu şəxsən özü də etiraf edir. Öz çıxışlarında etiraf edir ki, sənədi imzalamaq üçün onu hərbiçilər, xüsusilə, Müdafiə naziri David Tonoyan və Baş Qərargah rəisi Onik Qasparyan məcbur edib. Qasparyan özü də Dağlıq Qarabağla bağlı müqavilənin imzalanması üçün məsuliyyəti öz üzərinə götürüb. "Baş nazir bu qərarı mövcud vəziyyətin hərtərəfli qiymətləndirilməsinin nəticələrini nəzərə alaraq mənim təklifimlə verib və bu qərar mütləq bir zərurət idi", deyə Onik Qasparyan bildirib.

Məsələ burasındadır ki, Baş Qərargah rəisi, hərbi idarədə ikinci şəxs ola bilər, amma əsas şəxs deyil. Üstəlik, Qasparyan bu vəzifəyə nisbətən yaxın zamanda təyin edilib. Bununla belə, Müdafiə naziri David Tonoyan, nəinki 6 ildə Müdafiə nazirinin müavini olub, həm də 2018-ci ilin may ayından hərbi şöbəyə rəhbərlik edir. Yəni həm Ermənistanın, həm də qondarma rejimin müdafiə qabiliyyətini gücləndirəcək mühüm qərarlar vermək üçün onun kifayət qədər vaxtı olub.

Ancaq biz müharibədən əvvəlki dönəmdə də nə gördük, nələrin şahidi olduq? Biz onun erməni diasporası qarşısında əsassız şəkildə lovğalanmasını gördük. Gördük ki, David Tonoyan, "yeni müharibə başlayarsa, Azərbaycanın yeni ərazilərini alacağıq", deyə çox axmaq, düşünülməmiş fikirlər səsləndirdi. Tonoyan kameralar qarşısında lovğalanaraq, ermənilərə hücum etməyə cəsarət edəcəkləri təqdirdə, azərbaycanlıları yer üzündə siləcəkləri ilə təhdid etdi. Ancaq müharibə başlayan andaca məlum oldu ki, nə mənəvi, nə də texniki cəhətdən bu sözü söyləməyə belə imkanları, əsasları yoxdur. Orduları özlərini içəridən, daxildən yeyən cinayətkarın təsiri altındadır və bundan heç qurtula da bilmirlər. Ermənistan, öz ordusunu gücləndirmək üçün də bir şey etmək iqtidarında deyil.

Ermənilər üçün ən acınacaqlı olanı o idi ki, müharibə getdiyi zamanda, onsuz da vəziyyətin onların xeyrinə olmadığını İrəvanda başa düşəndə hərbiçilər açıq-aşkar ermənilərə yalan danışmağa davam edirdilər. Düşmənin bu və ya digər yaşayış məntəqəsi Azərbaycan Ordusu tərəfindən ələ keçirildiyi zaman Ermənistan tərəfi üçün hər şeyin yaxşı olduğu barədə elan ediləndə onların yalan danışdığını dərk etməli idilər ermənilər. Azərbaycan Ordusunun Şuşanın yaxınlığında olduğu zaman da erməni əsgərlərinin Hadrutda çay içdikləri nağılları ilə ermənilər aldadılmaqda idilər. Nəticə özünü çox gözlətmədi və 9 noyabr tarixində Paşinyan özləri üçün biabırçı adlandırdıqları sənədi imzalayanda ermənilər bir növ yuxudan ayıldı.

Məsələnin ən gülməli və ən biabırçı tərəfi budur ki, Tonoyan indi Azərbaycanın daha çox qüvvə və mənbəyə, imkanlara, resurslara sahib olduğunu ifadə edən bəhanələr gətirməyə çalışır. Halbuki, bir qədər əvvəl, yəni, müharibənin gedişində o tamam başqa iddiada idi və ermənilər döyüş zamanında Müdafiə Nazirliyinə inanırdı, hərbi departament nümayəndələri Şuşan Stepanyan və Arsrun Ovannisyanın qalibiyyət barədə yalançı hesabatlarına inanırdı.

Arsrun Ovannisyan bu vəziyyətdə davam edə bilməyəcəyini anlayaraq hərbi xidmətdən ayrılsa da, Tonoyan hələ də yerində oturmaqda davam edir. Utanmadan, xəcalət çəkmədən, çəkinmədən kreslosunda özünü rahatlayır və çox yox, bir-iki ay bunan əvvələ qədər Azərbaycan Ordusunu qovacaqları, Azərbaycanın müharibəyə başlayacağı halda yeni torpaqlar itirəcəyi ilə hədələyərək lovğalanan, nəticədə isə qovulan, döyüş mövqelərini qoyub qaçan ermənilərin sanki, Medafiə naziri deyil. Şərəfli olmaması bir yana, ən azından həqiqi, əsl bir zabit kimi, məsələn, Axromeyevin misalında intihar etməsi başına dəysin, vəzifəsindən istefa verməyə belə cəsarət tapmadı David Tonoyan. Baxmayaraq ki, erməni dövləti gözləri qarşısında iflic duruma düşüb, məğlubiyyəti fonunda üstəlik vətəndaş müharibəsi ilə də üz-üzədir və bunun da səbəbkarlarından biri elə Tonoyanın özüdür, bu adam getmir ki, getmir. Bu sifətsiz də Ermənistanın əzablı halı barədə düşünməyi belə buraxıb, amma, öz kreslosunu buraxmır. Ermənistan dövləti belə səlahiyyətliləri iləmi meydan oxuyurdu? Görəsən, bəs ən azından biabırçı məğlubiyyətdəki günahını bölüşmək üçün David Tonoyanın istefa ərizəsini təqdim etməsinə nə mane olur? Heç nə. Ancaq yenə də etməyib və hələ də abırsızcasına oturur, gözləyir öz baş naziri kimi.

Görünür, Tonoyan və Paşinyan hələ Müdafiə Nazirliyinin büdcəsini tam mənimsəməyiblər və getməyi bu baxımdan hələ çox tez hesab edirlər. Vətən, xalq, torpaq kimi ali hislərdən dəm vuran bu insanların mahiyyətinin, varlığının sıfırdan aşağı, heç olduğu göz qabağındadır. Varlığı, mahiyyəti heç olanlar özləri özlərinə qıymasa da aldatdıqları cəmiyyət tezliklə onlara qıyacaq və indi İrəvanın küçələrində dolaşan idarəedilməz kütlənin qəzəbi məhz onların başında çatlayacaq. Buna heç şübhələri olmasın.

***İnam Hacıyev***



## Mitinqdə ermənilər Putini təhqir etdilər

Qarabağda müharibəni dayandırmaq üçün 10 noyabrda imzalanan müqavilə ilə əlaqədar İrəvanda isteriya davam edir. Razılaşmaya əsasən Ermənistan bütün silahlı birləşmələrini Azərbaycan ərazilərindən çıxarır. Proses hazırda davam edir.

Yerevanda Rusiya Prezidentinin imzaladığı müqavilə ilə əlaqədar olaraq anti-Rusiya ovqatı artmaqdadır. Bu, həm də Vladimir Putinə qarşı edilən şəxsi hücumlara aiddir. Məsələn, aşağıdakı videoda isterik bir İrəvan sakininin Rusiya liderinə qarşı necə iddia qaldırdığını görə bilərsiniz. Sakin iddia edir ki, guya Putini ermənilər hakimiyyətə gətirib.

## Ruben Melikyan: "Xain öz ətrafında birləşməyə çağırır"



Öz ölkəsini, xalqını fəlakətə sürükləyən xain, hamını ətrafında birləşməyə çağırır. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri hüquq müdafiəçisi, qondarma rejimin keçmiş ombudsmanı Ruben Melikyan özünün Facebook səhifəsində yazıb. Məlumatda qeyd olunur ki, Nikol Paşinyanın son mesajı ilə bağlı hüquq müdafiəçisi bir yazı paylaşıb.

"Bu, bütün dünya tarixində heç vaxt olmayıb. Öz ölkəsini, xalqını ağlasığmaz fəlakətə gətirən bir xain, ətrafında birləşməyə səsləyir. Bu, nədir ...", deyə Ruben Melikyan özünün sosial şəbəkə hesabında yazır.

# “Ermənistanda tam bir xaos hökm sürür”

***“Məğlubiyyətin “dadını çıxardan” Ermənistanda tam bir xaos hökm sürür. Ölkəni etiraz mitinqləri bürüyüb, həbslər başlayıb. Bu proseslər düşmən ölkədə guya demokratiya dalğası ilə hakimiyyətə gəlmiş Paşinyan hökumətinin əsl sifətini bir daha çılpaq şəkildə nümayiş etdirməkdədir. Artıq Ermənistanın baş naziri qurduğu diktatura rejimini demokratiya pərdəsinə bürüyüb gizlədə bilmir. Ermənistanın yaşadığı fəlakətin əsas baiskarı olan Paşinyan onu ittiham edən bütün müxalifət nümayəndələrini həbsə atdırır, həmçinin onlara qarşı müxtəlif təzyiqlər və təhdidlər həyata keçirdir. Ermənistanda Paşinyanın istefası tələbi ilə keçirilən kütləvi aksiyalarda 10-dan artıq müxalifət lideri saxlanılıb və müxalifətçilər hərbi vəziyyət zamanı mitinq təşkil etməkdə, dövlət sirrini açıqlamaqda təqsirləndirilir”. Bunu SİA-ya Əməkdar jurnalist Elman Babayev deyib.***

Onun sözlərinə görə, Paşinyan amansız repressiyalara əl ataraq, bu yolla ölkə daxilində artan narazılıq və xalq qəzəbini söndürmək niyyətindədir. “Demokrat” Paşinyan iqtidarı müxalifət partiyalarının hökumətin fəaliyyəti ilə bağlı tənqidlərini cəmiyyətə “milli xəyanət” kimi təqdim edir. Paşinyanın “demokratiyası” o həddə çatıb ki, Ermənistanda dövlət orqanlarının və vəzifəli şəxslərin hərəkətlərini (çıxışları, nəşrləri də daxil olmaqla) tənqid edən, təkzib edən, şübhə altına alan və ya başqa bir şəkildə dəyərdən salan məlumatların dərc edilməsi, yayımlanması qadağan edilib. Paşinyanın indiki davranışları heç də müharibədə üzləşdiyi məğlubiyyətlə bağlı deyil. Əslində Ermənistanda “demokratik inqilab” dalğası ilə iqtidara gələn Paşinyan hakimiyyətinin mayası ilk gündən diktatura ilə yoğrulub. Belə ki, Paşinyan hakimiyyətinin 7-ci ayında “demokratik islahatlara” başlamışdı. Bunun nəticəsində siyasi məhbus Mger Yegiazaryan aclıq aksiyası keçirərək həbsxanada vəfat etdi.

Paşinyan “islahatları” davam etdirərək hakimiyyətdə olduğu 2 il ərzində “korrupsiyaya qarşı mübarizə”yə başladı və bu ad altında siyasi rəqiblərini sıradan çıxartmağa nail oldu. Ermənistanın keçmiş prezidentlərdən biri həbs edildi, digərinə qarşı cinayət işi qaldırıldı. Aparıcı müxalifət partiyasının sədri, deputat Sarukyan bu gün də həbsdədir.



Paşinyanın bu davranışlarını Qərb dairələri həmişə görməzdən gəldilər. Bu heç də təsadüfi deyildi. Qərbin öz adamı kimi hakimiyyətə gətirdiyi şəxslərin qeyri-insani addımlarına göz yumması ənənəyə çevrilib. Paşinyan da belələrindəndir. Məhz Qərb dairələri Sorosun adamı olan Paşinyanı Ermənistanda demoktarik şəxs kimi qələmə verirdilər. 2018-ci ilin mayında Ermənistanda baş vermiş dövlət çevrilişini “demokratik inqilab”, hakimiyyəti ələ keçirmiş Paşinyanı isə “demokrat lider” kimi təqdim edirdilər. Amma Paşinyan cəmi 2 ilə Ermənistanda demokratiyanın olanqalan işartılarını belə məhv etməyi bacarıb. Ermənistan sözün bütün mənalarında kriminal şəxslərin neofaşizm yuvasına çevrilib. Vətəndaşların dinc etiraz aksiyalarını qeyri-mümkün edən yüksək cərimələr tətbiq olunur, hakimiyyəti, hətta bələdiyyələrə belə tənqidə görə 1200 avro cərimə tətbiq edilir, sosial şəbəkə istifadəçiləri və jurnalistlər açıq şəkildə hakimiyyətin özbaşınalıqlarını, cinayətlərini tənqid edə bilmirlər. Burada hansı demokratiyadan söz açmaq olar?

Amma Qərb, onun demokratik institutları, insan haqları təşkilatları ötən 2 ildə Paşinyan iqtidarının bu davranışlarına qarşı heç bir tənqidi mövqe sərgiləməyib. İndinin özündə də Paşinyan Qərbin gözündə “toxunulmaz” şəxsdir.

Bəlkə də zamanında Paşinyanın qeyri-demokratik addımlarına qarşı cəza tətbiq olunsaydı, o, növbəti daha böyük cinayətlərə əl atmaz, hərbi cinayətlərə də yol verməzdi.

Deməli, bu gün regionda yaşanmış müharibə və dağıntılara görə yalnız Paşinyan məsuliyyət daşımır. Bütün bunlarda Paşinyana hakimiyyət kürsüsünə qalxması üçün hər cür dəstək verən, sonradan onun bütün cinayətlərinə göz yuman Qərb dairələri, təşkilatları da məsuliyyət daşıyırlar.

Bir anlıq təsəvvür edin ki, Ermənistanda baş verənlərin bir neçəsi Azərbaycanda yaşanır. Dərhal bütün Qərb instutları hərəkətə gətirilər, Azərbaycanın əleyhinə davamlı bəyanatlar verilərdi.

Bu gün Ermənistanda hamının gözü qarşısında müxalifətin əzilməsi və sıradan çıxarılması tam bir susqunluqla qarşılanır. Heç kim bunu “görmür”. Dünyada ikili standartlar, ədalətsizlik, selektiv münasibət ən iyrənc şəkil alıb.

44 günlük müharibə zamanı Prezident İlham Əliyevdən müsahibə götürən Qərb mediası feyk məlumatlar əsasında ölkəmizdə demokratiya, insan haqları ilə bağlı ittiham xarakterli suallar verirdilər. Hətta Almaniyanın ARD kanalı irəli gedərək yalan məlumatlar əsasında Azərbaycanda müharibə dönəmində bir nəfərin sülh tələb etdiyinə görə həbs olunması barədə sual verdi. Azərbaycan Prezidentinin ad tələb etməsindən sonra bunun yalan olduğu anındaca üzə çıxdı. Həmin beynəlxalq media bu gün Ermənistandakı kütləvi həbsləri, təqibləri niyə görmür? Paşinyan kimi alçalmış bir adama bu barədə sual verməyə özlərində cəsarət tapmayanların Azərbaycana qarşı səlib yürüşünün səbəbi nədir?

İllərdir Azərbaycan Prezidentinə xarici mediada hər cür böhtan atılır. Bunun başlıca səbəbi demokratiya, filan deyil. Səbəb Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, Ermənistandan işğal etdiyi torpaqları geri almaq üçün sistemli mübarizəsi idi. Azərbaycanı ləkələmək, güclənməsinin qarşısını almaq, ölkənin mənfi imicini yaratmaq üçün hər cür yola baş vururlardu.

Bunu illərdir sifariş edənlərin əsl kimlikləri, simaları gün kimi ortadadır. Bu gün Ermənistan haqq işi uğrunda mübarizə aparan Azərbaycanın qarşısında diz çöküb, düşmən ölkə xaosa sürüklənib, iqtisadiyyatı çöküb. İndi bu dairələr işğalçı Ermənistanın xilası üçün açıq şəkildə, heç bir utanc hissi duymadan hərəkətə keçiblər. Bərdə, Gəncə və digər Azərbaycan şəhərlərində mülki insanlara qarşı Ermənistanın müharibə cinayətlərindən bəhs olunmur. Hansısa Qərb mediasının bu hadisələrdən obyektiv nəsə yayımlamasına imkan verilmir, bunu edənlərə təzyiqlər olunur. Əvəzində Azərbaycana və onun liderinə qarşı uydurmaları davam etdirmələrinə şərait yaradılır. Bu gün bir sıra Qərb ölkələrinin, o cümlədən Fransanın, Kanadanın Ermənistana dəstək bəyanatları bu ölkələrin hakim dairələrinin həqiqi simalarını və mahiyyətini aydın əks etdirir”.

***Ceyhun Rasimoğlu***

# “Tarixə yazılan 44 gün - Qələbəbmizin NİDASI!”

Sentyabrın 27-dən başlanan İkinci Qarabağ müharibəsi Azərbaycanın qələbəsi və Ermənistanın kapitulyasiyası ilə başa çatdı. 44 gündə 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər işğaldan azad edildi. Bu Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının diplomatik siyasəti, Güclü Azərbaycan Ordusunun, Rəşadətli qəhrəman və qorxmaz igid əsgər və zabitlərimizin və xalqımızın birliyi, həmrəyliyi nəticəsində əldə olundu. Noyabrın 11-də dövlət başçımız İlham Əliyev 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşündə “Qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir” söyləyərək onların qəhrəmanlıqları əsasında yazılan tarixdən geniş bəhs edərkən onu da vurğuladı ki, düşmənin qənimət götürülmüş hərbi texnikasının Bakıya gətirilməsinə, bunun üçün yer seçilməsinə göstəriş verilib və həmin texnikanı nümayiş etdirəcəyik, bütün Azərbaycan xalqı nəyi əldə etdiyimizi görəcək.

İkinci Qarabağ Müharibəsinin 44-cü günü - Qələbəmizin NİDASINI qoydu! Dövlətimizin qətiyyəti, əsgər və zabitlərimizin yüksək vətənpərvərliyi, igidliyi və yenilməzliyi, Prezident-xalq-ordu birliyi sayəsində ədalət bərpa olundu, işğala son qoyuldu, Ermənistan və onun “yenilməz ordusu” döyüş meydanında darmadağın edildi, diz çökdü.

Budur, Ali Baş Komandan siyasəti! Budur, Müzəffər Ordunun məğrurluğu! Budur, rəşadətli əsgər və zabitlər, Prezident-Xalq-Ordu birliyin! Çünki 30 il həsrətində olan torpaqlarımız geri qayıtmalı idi, QAYITDI da! Müharibənin başlandığı ilk gündən Ali Baş Komandanımız, Prezident İlham Əliyev sülh danışıqlarının zəruriliyinə nə qədər çağırışlar etsə də, döyüşün dayandırılması üçün təzyiqlər



**SEYFƏDDİN ƏLİYEV, YAP Masallı rayon təşkilatının sədri**

göstərilməsinə baxmayaraq, dövlətimizin başçısı öz prinsipiallığını, əzmini bir daha nümayiş etdirdi. Azərbaycan Prezident İlham Əliyev istər xalqa müraciətlərində, istərsə də 44 gündə xarici mətbuata 30-a yaxın müsahibəsində səsləndirdiyi bəyanatlar da bir daha sübut etdi ki, Azərbaycanın milli maraqları hər şeydən öndə dayanır. Dövlətin maraqlarından, xalqın iradəsindən kənar bir addım belə atıla bilməz.

Ancaq işğalçı Ermənistan İkici Vətən Müharibəsinin ilk günündən öz terrorçu niyyətini, işğalçı siyasətini nümayiş etdirdi, ancaq faşist xisləti düşmən etdiyi cinayətlərə görə bədəli böyük oldu. 30 il ərzində əzəli-əbədi torpaqlarımızı işğal altında saxlayan təcavüzkar Ermənistan hakimiyyətinin nəhayət ki, qanunsuz əməllərinə beynəlxalq hüquq çərçivəsində son qoyuldu. Tarixi ədalət bərpa olundu! zərbaycan Qarabağa qovuşdu, haqq öz yerini tutdu, tarixi ədalət bərpa olundu. 2020-ci il, noyabrın 10-u Azərbaycanın hərb tarixinə BÖYÜK QƏLƏBƏ, Qarabağımızı BÖYÜK QAYIDIŞ, Qarabağ Azərbaycandır!NİDASINI qoydu. Və Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin düşmən tapdağı altında qalan torpaqlarımızın işğaldan azad etməsi bütün bəşəriyyətə ölkəmizin gücünün, qüdrətinin daha bir nümayişi oldu. Ermənistanın təslim olması ilə nəticələnən bəyanatın rəsmi şəkildə elan edilməsi sübut etdi ki ölkəmiz işğal altında olan torpaqlarını müstəqil şəkildə azad etməyə qadirdir. Azərbaycan bütün dünyaya bir daha göstərdi ki, Onun savaşı haqq savaşıdır. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-dən başladığı zəfər yürüşü 44 gün ərzində 30 ilin həsrətinə son qoydu, avantürist

Ermənistanın təcavüzkar silahlı qüvvələrini darmadağın etdi, işğal altında qalan torpaqlarımızı əsl sahibinə qaytardı.

Bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi.

“Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi” - deyən Ali Baş Komandanımız hər zaman olduğu kimi bu dəfə də vədinə əməl etdi. Noyabrın 10-u xalqımızın tarixinə şanlı, qızıl hərflərlə yazıldı! İkinci Vətən Müharibəsinin 44-cü günü, noyabrın 10-u, 30 ildən sonra Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev cənabları bir daha sübut etdi ki, bir qarış da torpağımızı heç kəsə verən deyilik. Çünki Qarabağ Azərbaycanındır!, Qarabağ Azərbaycandır!NİDA!

# "Şuşanın azad olması bütün Qarabağın azad olmasıdır!"

***Gözün Aydın Azərbaycanım, gözün aydın bütün türk dünyam! Mənliyimiz, Qürurumuz olan Bayrağımızın ad günü ərəfəsində, noyabrın 8-də Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin diplomatik, proqmatik siyasəti, Müzəffər Ordumuzun Gücü, Rəşadətli əsgər, zabitlərimizin şücaəti və Xalqımızın birliyi, inamı nəticəsində Şuşamız azad olunması Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri oldu. Bu tarix xalqın bütövlük, dəyanət, rəşadət və ləyaqət tarixidir və Azərbaycanın bədənsiz ruhuna ruhun qaytarılması tarixidir, tarixi ədalətin bərpa olunduğu tarixdir. Bu Azərbaycan gücünün, mili həmrəyliyinin, Prezidentimizin bütün mürəkkəb məsələlərin öhdəsindən uğurla gəlməyi bacardığının tarixi və sübutudur.***



*ZƏRİFƏ QULİYEVA, YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü, "Modern Ailə və İnkişaf" İctimai Birliyinin sədri*

Bu gün dünya azərbaycanlılarına qələbə daddıran Lider olaraq böyük sevinc yaşadan tarixdir. Bu haqq yolumuzun tarixidir, 28 illik həsrətin yarasına məlhəm qoyulan tarixdir, bütün Azərbaycan xalqına, qəlbi yaralı bütün Şuşalılara yaşam tarixidir. Şuşa Dövlət Bayrağı günü ərəfəsində azad edilməsi Müqəddəs bayrağımızın ən şərəfli günündə Şuşada əbədi dalğalanacaq günün tarixidir!

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Şuşa şəhərinin azad olunması münasibətilə rəsmi "İnstagram" səhifəsində etdiyi paylaşımda Azərbaycan xalqını təbrik etməsi ilə dediyi kimi "İllər boyu davam etmiş kədər, həsrət, faciəli hadisələrdən sonra tarixi ədalət bərpa olunur. Qoy bizim bütün uğurlarımızın və nailiyyətlərimizin, bütün qələbələrimizin qarantı olan xalq-Prezident birliyi günbəgün möhkəmlənsin! Bu gün məhz bu birlik Azərbaycanın öz gücünü nümayiş etdirməsinə imkan yaradır! Milli həmrəylik, xalqın etimadı, inamı və dəstəyi sayəsində bizim Prezidentimiz bütün mürəkkəb məsələlərin öhdəsindən uğurla gəlməyi bacarır! Qoy Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Şuşa bizimdir! Qarabağ Azərbaycandır!".

Bəli, 1992-ci il may ayının 8-də erməni təcavüzkarları tərəfindən Şuşa işğal olunsa da 2020-ci il noyabrın 8-də - 28 ildən sonra Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu gün Müzəffər, Sarsılmaz, Şanlı Ordumuz, rəşadətli əsgər və zabitlərimizin gücü ilə 28 il həsrətində olduğumuz, Azərbaycanın ürəyi, mirvarisi, o cümlədən bütün Qafqazın mədəniyyət beşiyi olan Şuşa şəhərini düşmən işğalından azad etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Şəhidlər Xiyabanında xalqa etdiyi müraciəti isə bütün xalqımızın Qarabağ həsrətinə məlhəm oldu. Ali Baş Komandanın tarixi müraciətindən: "Dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim, yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində - 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam.

Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.

Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Bəli, bəli, bəli!!! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycanındır!.

Tarixi sənəd imzalandı: Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı

Noyabrın 10-da isə Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin üçtərəfli bəyanatını imzaladılar. Ancaq yenə də eyni oyun, eyni riyakarlıq. İşğalçı Ermənistan bu bəyanata qol çəkməkdən imtina edib. Sözsüz ki, gücsüz, rəzil Paşinyan kimi mənəviyyatsız, terrorçu güclü, dünya dövlətlərinin qəbul etdikləri İlham Əliyev kimi diplomatik Lider qarşısında rəzil və faşist xislətli Paşinyan kimilərin siçan deşiyinə girməsi təəccüblü də deyil. Məhz Ali Baş Komandanını diplomatik siyasətinin, Müzəffər Ordumuzun və Rəşadəli əsgər və zabitlərimizin gücü, şücaəti qarşısında sınmalıdır. Və sentyabrın 27-dən etibarən ilk gündən 44 günü ərzində zəfər yürüşünə başlayan Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, uzun illər ərzində işğal olunan Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavənd rayonunun böyük hissəsini, Laçın rayonunun bir sıra kəndlərini işğaldan azad etdi. Beləliklə, 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Xalq-Ali Baş Komandan birliyi Ordumuzun zəfər yürüşünün əsasını təşkil etdi

Xalq-Ali Baş Komandan, xalq-ordu birliyi üzərində qurulan zəfər yürüşü ilə Azərbaycan həm də BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icrasının bir qismini də uğurla icra etdi. Ümumilikdə, hərbi kampaniya dövründə 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad olundu. Və noyabrın 10-da imzalanan bəyanat Dağlıq Qarabağ münaqişəsinin tarixi qələbəsini elan etdi! Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasıyasıdır. Döyüş meydanında darmadağın edilən Ermənistanın Azərbaycan Prezidentinin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməkdən başqa çıxış yolu qalmadı. Beləliklə Paşinyan kapitulyasiya şərtlərinə razılığını verdi. Dövlətimizin başçısı dəfələrlə, o cümlədən BBC-yə son müsahibəsində də bəyan etmişdi ki, Ermənistan qoşunlarının çıxarılması barədə öz üzərinə öhdəlik götürdüyü halda hərbi əməliyyatlar dayandırılacaq.

Noyabrın 10-da imzalanan birgə bəyanatda Ermənistan öz üzərinə öhdəlik götürür ki, qarşıdan gələn 20 gün ərzində Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracaq. Nəticə etibarilə, qarşıdan gələn qış mövsümündə qan tökülmədən, itki verilmədən ərazi baxımdan böyük rayonlarımız da işğaldan azad olunur. Həmçinin bölgədə sülhyaratma prosesi Rusiya və Türkiyənin birgə iştirakı ilə təmin olunacaq. Həmçinin sülhməramlıların əraziyə gəlməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması ilə sinxron qaydada aparılacaq.

Həmçinin, ərazi bütövlüyümüz təmin olundu. Bəyanatda digər önəmli məqam ondan ibrətdir ki, burada Dağlıq Qarabağa hər hansı statusun verilməsindən söhbət getmir və Azərbaycanın ərazi bütövlüyü tam təmin olunur. Bu Azərbaycanın tam və şərsiz qələbəsinin əyani sübutudur. Bir sözlə, Azərbaycan xalqının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Prezident İlham Əliyev nəyi necə və nə zaman etməyi özünün yaxşı bildiyini bir daha nümayiş etdirdi.

Bu qələbə azərbaycanlılar haqqında məğlub xalq sindromunu sındırdı, xalqın inamını özünə qaytardı. Artıq bu qələbə Xalqımızın əzmini, qəhrəmanlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmayacaq və gec-tez öz amalına qovuşacaqdır.

Bir sözlə, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

## Xərcləri sülhməramlı kontingenti yerləşdirən tərəf qarşılayacaq



"Beynəlxalq təcrübədə bu xərcləri sülhməramlı kontingenti yerləşdirən tərəf qarşılayır". SİA xəbər verir ki, bunu açıqlamasında politoloq Elşən Manafov deyib. Deputat bildirib ki, əgər beynəlxalq hüquqa istinad etsək, sülhməramlıların bu və ya digər bölgəyə yerləşdirilməsi ilə bağlı xərclər bu missiyanı öz üzərinə götürmüş dövlət tərəfindən qarşılanır: "Çünki sülhməramlı yerləşdirən dövlətin həmin ərazidə münaqişənin aradan qaldırılması və ya alovlanmasının qarşısını almaqda məqsədləri var. Bu məqsədlər də həmin dövləti maliyyə məsrəflərini öz üzərinə götürməyə sövq edir".

E.Manafov vurğulayıb ki, əgər bu sülhməramlılar BMT mandatı altında gəlsəydilər, onda onların maliyyə məsrəflərini BMT öz üzərinə götürəcəkdi: "Yəni söhbət "mavi dəbilqəlilər"dən gedir. Amma indiki halda Rusiya ATƏT-in Minsk qrupuna daxil olan digər dövlətlərlə müzakirə aparmadan və müvafiq qərarların qəbul olunmasını gözləmədən, özü təkbaşına bu missiyanı üzərinə götürüb. Düşünürəm ki, həmin sülhməramlıların yerləşdirilməsi və digər məsrəfləri də Rusiya dövlətinin üzərinə düşəcək. Amma ola bilər ki, Azərbaycan və Ermənistan tərəfi qeyri-rəsmi şəkildə bu sülhməramlıların qalma xərclərinin əhəmiyyətli bir hissəsini öz üzərlərinə götürməli olsunlar".

***Aysel Məmmədova***

## Paşinyanın ailəsi yardım üçün toplanmış 130 milyon dolları mənimsəyib?

Ermənistanın "İrates" qəzetinin yazdığına görə, bütün dünya erməniləri bir ay ərzində "artsaxa" yardım məqsədi ilə 130 milyon dollar pul yığıblar. SİA adıçəkilən nəşrə istinadən xəbər verir ki, ermənilər bu məbləğin aqibətinin necə olacağından narahatdırlar. Belə ki, artıq yığılan vəsaitlərin Paşinyanlar ailəsi tərəfindən mənimsənilləcəyi ilə bağlı sözsöhbətlər gəzməkdədir.



"Bu günlərdə hakim ailənin harada yerləşmələri və məqsədlərinin nədən ibarət olması məlum deyil", yazan erməni nəşri qeyd edir ki, bununla bağlı bildirilir: "Biz müvafiq orqanları ümumerməni "Hayastan" fondu tərəfindən əldə edilmiş vəsaitlərin yalnız səmimi məqsədlərə xərclənməsni və bu pullarınm hakim ailənin caynaqlarına keçməməsini tələb edirik".

Bununla yanaşı, nəşr Nikol Paşinyanın arvadı Anna Akopyanla bağlı digər maraqlı məqama da toxunub: "Əgər son doqquz ayda Anna Akopyanın saç və imic ustasına dövlət büdcəsindən 39 min dollar xərclənibsə, bu zaman "müştərinin" ölkədən qaçması üçün üzünü, xarici görünüşünü Kanada abhavasına uyğunlaşdırması və dəyişməsi üçün plastik əməliyyata, eləcə də mülkünün interyerinə tələb edilən vəsaitin də nə qədər olduğunu təxmin etmək mümkündür".

***Rövşən***

# Dünyanın çözmək istəmədiyi bir Qarabağ problemi vardı

***Bu problemin hədəfi Azərbaycan xalqının ürəyi və ərazisi idi. Düşmən hər ikisini nişan aldı və hədəflərinə çatdı. Lakin məsələ həll edilmədi. Çünki problemin həlli ədalətli olmalıydı, qəribliyə və qaranlıq quyunun dibinə salınmış ədalət. Əxlaqın kökündən, təməlindən yıxıldığı, yerlə süründüyü bir dünya ilə üz-üzə qalmışdıq. Onlardan deyildik deyə hər cür müsibətə layiq idik. Hökm edənsə yalnız zor və ədalətsizlik idi. Nə isə ağıllarına gəlib-gəlməyən hər cür bəlanı başımıza gətirdilər, tək bir şeyi unutdular. Bu xalqın inamını və dirəniş gücünü məhv edə bilməmişdilər.***

Ən önəmli nöqtəni unutmuşdular. Biz də problemin həllinə unutduqları o nöqtədən başladıq. ATƏT-in Minsk qrupu dediyimiz başbəlası qurum isə anasından bic doğulmuşdu, nəinki bu problemi həll etmək istəmədi, heç bu problemi anlamaq belə istəmədi. Və çox keçmədən ABŞ da işin içindən çıxdı, yəni baş qoşmadı. Biz hələ də məcburiyyətdən ATƏT kimi, "beynəlxalq birliyin ədalətinə güvənirik" kimi işə yaramayan taktikalar işlədir, hər dəfəsində də eyni qapıya çıxırdıq. Otuz ildir çarx kimi dönür, fırlanırdıq.

Oğullar itirir və oğullarının tabutunu çiynində daşıyan analara şeir-hekayələr yazırdıq. İlin on iki ayının hər birini işğal və soyqırımı günləri kimi qeyd edirdik. Zəfərə, qələbəyə tamarzıydıq. Zəfəri yaşamağı yadırğamışdıq. Amma bir gün anladıq ki, başarının və zəfərin yolu sağlam düşünüb, plan tutmaq, qərar vermək, sahib olduğun potensialın gücünü dəyərləndirmək və hədəfə çatmaq üçün o gücü sağlam bir şəkildə istifadə edə bilməkmiş. Bir də öyrəndik ki,

### SAVAŞ DÖYÜŞ MEYDANINDAN ÖNCƏ ZEHNİYYƏTDƏ QAZANILIR

Günlərin birində bunu da bacardıq. General-mayor Polad Həşimovun şəhid olduğu gün - 14 iyul 2020-ci il. Poladın şəhidliyi xalqımızın diriliş günü oldu. Kimsədən izn almadan insanlar yollara, meydanlara endi. Hər kəs aldı bayrağını, çıxdı evindən, sanki bir-birilə vədələşmiş kimi. Əllərində bayraq, dillərində tək bir şüar vardı: "Cənab Ali Baş Komandanım, döyüş əmri ver! Cənab Ali Baş Komandanım, biz Vətənimizi azad etmək, alnımızdakı ləkəni təmizləmək istəyirik!". Ertəsi gün isə şəhid generalımızın dəfnindən çıxan xalq yerini hərbi komissarlıqların qarşısında aldı. Qadın-kişi, gənc-yaşlı demədən. Bəli, həmin gün savaşı zehniyyətimizdə qazanmışdıq artıq. Qalırdı döyüş meydanı.

Əslində xalqımız ali məqamı gözləyirdi. Ali Baş Komandanın dediyi kimi: "Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı. Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi". Bəli bu bir həqiqət idi.



*Əminə YUSİFQIZI, Yevlaxda çıxan "Kür" qəzetinin baş redaktoru, Respublikanın əməkdar jurnalisti, YAP Yevlax rayon Təşkilatı Qadınlar Şurasının sədri*

Və Vətən üçün Savaşa girdik. Müharibə bütün arzuolunmaz tərəfləri ilə bərabər, həm də, bir millətin genetik xarakterinin, bütünlüyünün, mənəviyyatının və əxlaqının nümayişidir. Çünki savaşa təktək döyüşçü deyil, bütöv cəmiyyət girir. Yurd, vətən , torpaq, tarix, milli mədəniyyət, sosial quruluş, hətta iqlim belə etnosu və milləti müəyyənləşdirən amillərdir. Sən demə bizim savaş mədəniyyətimz də özünəməxsus imiş, tolerant imiş, bunca əxlaqlı imiş. Qarabağda əlisilahlı düşməni öldürən əsgərin qardaşı Gəncədə erməninin atdığı bombanın altında qalan yaşlı erməni qadını fəlakətin altından qucağında çıxartdı. Bax, bizə layiq olan zəfəri o an qazandıq. Azərbaycan xalqı 30 illik bir zamanda kimsənin torpağına, qazancına, gəlirinə, çıxarına tamah salmadan, heç bir kirli niyyəti olmadan, yalnız ona aid olan vətənini, yurdunu, şəhidinin düşdüyü torpağını yağı tapdağından azad etmək, yurdunu terror yuvasından, narkotik ticarəti poliqonundan, tarixini, mədəniyyətini barbarcasına məhv edilmədən qurtarmaq üçün savaşdı və bu haqq uğrunda neçə-neçə igid oğulun günəşi söndü.

27 sentyabr 2020-ci il. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başladı son zəfərimiz. 44 günlük qəhrəman bir tarix. Spartalılar kimi, deyilmi? Bəlkə daha əfsanəvi. Bütün xalq o sabah müharibəyə köklənmişdi. Çox keçmədən Azərbaycan Silahlı Qüvvələri düşmənin gözünü qırdı. Gerçək kimi deyildi, sanki qəhrəmanlıq romanı oxuyur, filimə baxırdıq. Ordumuz mənəvi-psixoloji cəhətdən o qədər güclü idi ki, dünyanı məhvərindən qoparacaqlar kimi. Hər kəsin sinəsi sipər idi, həm vətəninə, həm əsgər yoldaşına. Belə bir əxlaqla, mənəviyyatla dünyaya sahib olmaq olar. Ekiz oğullarının qoşa tabutunu qarşılayırdı analar. Amma Vətən deyirdilər. O Vətən sevgisi isə Şuşa alınan günü öz pik nöqtəsinə çatdı.

Qırxdördüncü gün - 10 noyabr 2020-ci il tarixində düşmən təslim oldu. Vətənimizi qoruduq, torpaqlarımızı düşmənin kirli ayaqlarının altından çəkib aldıq. Öyrəndik ki, hər kəs haqqını sökə-sökə alır, öyrəndik ki, havayı olan yalnız tələdə pendirdi. Dünyanın edə bilmədiyini, etmək istəmədiyini bu xalq etdi. Azərbaycanın gözlədiyi Qələbəni övladlarının qanı ilə qazandı! Şəhidlərin qanına qarışan torpaq bizə daha əziz, daha müqəddəs oldu. Onların ruhu qarşısında, anaları qarşısında əbədi minnət və şükran borcumuz var. Biz düşmənin unutduğu o ədalətə inamımızı və dirənişimizi dünyaya göstərdik. Bunun üçün Azərbaycan Ordusuna, Azərbaycan əsgərinə, ölkəmizin Prezidentinə, Ali Baş Komandan İlham Əliyevə hədsiz təşəkkür edirik! Onun rəhbərliyi ilə müasir, güclü Azərbaycan Ordusu yaradılıb! Onun qətiyyəti sayəsində Azərbaycan Ordusu düşməni sarsıtdı, müharibənin nəticəsini müəyyən etdi və qələbə nöqtəsini qoydu. Şübhəsiz ki, bu gücün mənbəyi Azərbaycan xalqıdır, onun torpağına, vətəninə olan sevgisi və Ali Baş Komandanına etimadıdır.

Sıxdıqca şəhid qanı çiçəkləyən torpağımıza bir də 44 günlük savaşın yeni şəhid qanı səpildi. Onlar Vətəni sevməyə gedənlərin arzusu, sevdası idi. Bu sevda ilə yola çıxanlar getdikləri yolun geri dönüşü olmadığını gözəl bilirdilər. Ona görə də gedərkən bizə Vətəni, bir də Günəş belə sönərsə ümidimizi Günəş yerinə yandırmağımızı əmanət edib getdilər.



## Təşəkkür edirik!

Ulu Heydər oğlu Prezident İlham  
Ali Baş Komandan qazandı inam.  
Tarixə yazıldı zəfər çələngi  
Qəlblərdə iftixar, çalındı "Cəngi"!  
Ata vəsiyyətin yetirdi sona  
Eşq olsun vətənin Müdrik oğluna.

44 gün döyüşdü Şanlı Ordumuz  
Şuşaya sancıldı zəfər bayrağı.  
İşğaldan qurtuldu gözəl yurdumuz  
Allah oldu xalqımızın dayağı.  
Qarabağın yandı sönməz çırağı  
Babaların isinəcək ocağı.

Otuz il biz dözdük hər işgəncəyə  
Düşmən ataş açdı Bərdə, Gəncəyə.  
Xəsarət yetirdi dinc əhaliyə  
Dağıldı binalar, söndü çıraqlar.  
Yetim qaldı, öldü yatmış uşaqlar...  
Vəhşilik törətdi nacins, alçaqlar.

Bütün dünya gördü bu həqiqəti  
İgid şəhidlərin cəsur qüdrəti.  
Bu bəladan xilas etdi milləti  
Dözümlü xalq çəkdi ağır zilləti.  
Ölkəyə, Vətənə Xalqına həyan  
Təşəkkürə layiq SƏRKƏRDƏ İLHAM!

*Ofeliya Mürsəlova Mürsəl qızı*  
*ADUP-nun sabiq pedaqoqu*

## Halal olsun sənə, Heydərin oğlu!



Səbrlə gözlədin uzun illəri,  
Sən kəsdin uzanan xain əlləri.  
Apardın dalınca gənc nəsilləri

Halal olsun sənə, Heydərin oğlu!  
Halaldır vətənin çörəyi sənə,  
Göstərdin gücünü mənfur düşmənə.  
Qaldırıb yumruğu düşmən üstünə,  
Azadlıq gətirdin sən bu torpağa.

Türkün bayrağını uca tutubsan,  
Həmişə, hər yerdə məğrur durubsan.  
Qəhrəman atanın igid oğlusan,  
Halal olsun sənə, Heydərin oğlu!

Fəxr edir səninlə bütün xalqımız,  
Yerdə qalmayacaq axan qanımız.  
Düşməndən qurtuldu Qarabağımız,  
Halal olsun sənə, Heydərin oğlu!

Ölkəmiz azaddır, biz də Bəxtəvər,  
Səninlə həmişə qürur duyaram.  
Şanlı ordumuzdan ilham alıram,  
Halal olsun sənə, Heydərin oğlu!

**Yaşar Fədai**

## ASALA terror təşkilatı barədə bir neçə dildə maarifləndirici videoçarxlar hazırlanıb



***Dövlət səviyyəsində terroru dəstəkləyərək, terrorçuluğu təcavüzkar siyasətinin əsas vasitələrindən birinə çevirmiş Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə ifşa edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri tədbirlərin görülməsi davam etdirilir.***

Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətindən SİA-ya bildirilib ki, Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidməti tərəfindən Ermənistan dövləti səviyyəsində dəstəklənərək uzun illər dünyanın müxtəlif nöqtələrində qanlı aksiyalar törədən ASALA terror təşkilatının törətdiyi cinayət əməlləri ilə bağlı dünya ictimaiyyətinin məlumatlandırılması məqsədilə "Asala terror təşkilatı barədə nə bilirsiniz?" başlıqlı fransız, ispan, alman, rus, ingilis və ərəb dillərində növbəti dəfə maarifləndirici video çarxlar hazırlanmışdır. Ermənistanın işğalçı və təcavüzkar mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi, işğalçı dövlətə qarşı beynəlxalq hüquqla nəzərdə tutulmuş sanksiyaların tətbiq olunması məqsədilə Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən bütün beynəlxalq qurumlara müraciət edilməsi təmin ediləcək.

https://www.youtube.com/-watch?v=vzbo_IitaU4

https://www.youtube.com/watch?v=T2-3U91LkUI

https://www.youtube.com/-watch?v=aJgSxhPYrcM

https://www.youtube.com/-watch?v=AD3KkpjIsgY

https://www.youtube.com/-watch?v=hnzKk3SXSRs

https://www.youtube.com/watch?v=AIo-vOftsZmE

# Erməni barbarlığının növbəti sübutu: Kəlbəcərdən çıxarkən evləri və meşələri yandırırlar

*Prezident İlham Əliyev: "Biz öz torpağımızda düşməni əzirik və torpaqlarımızdan çıxarırıq"*

***Bu gün terrorçu və işğalçı Ermənistanın barbarlığı, vandallığı heç də təəcccüb də doğurmur. Çünki terrorçu Ermənistan bütün dünyada işğalçılıq siyasəti ilə qəbul edilir.Azərbaycan isə həmişə haqq və ədalətin bərpası uğrunda mübarizə aparıb.***

Sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrinin Azərbaycana qarşı İkinci Vətən Müharibəsində Ali Baş Komandanımız, Prezident İlham Əliyev diplomatik siyasəti, Müzəffər Ordumuzun gücü, rəşadətli əsgər və zabitlərimizin şücaəti nəticəsində işğal altında olan torpaqlarımızın həsrətinə noyabrın 10-da son qoyuldu. Qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, uzun illər ərzində işğal olunan Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavənd rayonunun böyük hissəsini, Laçın rayonunun bir sıra kəndlərini işğaldan azad etdi. Beləliklə, 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Şuşa azad edildikdən dərhal sonra, noyabrın 9-da Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad olunası barədə ölkə ictimaiyyətini məlumatlandırdı. Beləliklə, hərbi əməliyyatlar zamanı darmadağın edilən düşmən Prezident İlham Əliyevin irəli sürdüyü şərtləri qəbul edərək, məğlubiyyətini etiraf etdi. Bu, Azərbaycan xalqının şanlı qələbəsidir.

### 10 noyabr - Dağlıq Qarabağ münaqişəsi bitdi

Şuşanın alınması Ermənistanı tam tərk-silah etdi, onun bütün manevr imkanları çökdü, ölkə və dünya ictimaiyyətini aldatmaq taktikası mənasını itirdi. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa çıxış yolu qalmadı. Dünya hərb tarixi də göstərir ki, belə itkilərə məruz qalmış tərəf məğlub hesab edilir, təslim olur və hərbi əməliyyatlar dayandırılır. Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri birgə bəyanat imzaladılar. Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında darmadağın edilən Ermənistanın Azərbaycan Prezidentinin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməkdən başqa çıxış yolu qalmadı. Beləliklə Paşinyan kapitulyasiya şərtlərinə razılığını verdi.

Noyabrın 10-da imzalanan birgə bəyanatda Ermənistan öz üzərinə öhdəlik götürür ki, qarşıdan gələn 20 gün ərzində Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracaq. Nəticə etibarilə, qarşıdan gələn qış mövsümündə qan töküləmədən, itki verilmədən ərazi baxımdan böyük rayonlarımız da işğaldan azad olunur. Həmçinin bölgədə sülhyaratma prosesi Rusiya və Türkiyənin birgə iştirakı ilə təmin olunacaq. Həmçinin sülhməramlıların əraziyə gəlməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması ilə sinxron qaydada aparılacaq.



Bəyanatda Dağlıq Qarabağa hər hansı statusun verilməsi ilə bağlı hir soz də yazılmayıb və Azərbaycanın ərazi bütövlüyü tam təmin olunur. Bu Azərbaycanın tam və şərsiz qələbəsinin əyani sübutudur. Artıq qoşunların təmas xətti anlayışı yoxdur. Atəşkəs hazırda Ermənistan və Azərbaycan silahlı qüvvələrinin yerləşmə məntəqələri ilə müəyyən olunur. Rusiya və Türkiyə silahları qüvvələri sülhməramlı statusda məhdud kontingentlə əraziyə yerləşdirilir.

Bu qələbə xalqımızın əzmini, qəhrəmanlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmayacaq və gec-tez öz amalına qovuşacaqdır. Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir.

Qarabağ müharibəsində uğursuzluğa düçar olan və Azərbaycan Ordusu qarşısında darmadağın olan Ermənistan silahlı qüvvələri Kəlbəcəri tərk etməyə məcbur edilib. Yenə də işğalçı erməni öz faşist xislətli olmasının nümayiş etdirir. 30 ildir Azərbaycanın doğma torpaqlarını zəbt edən ermənilər bu azmış kimi gedəndə də maksimum ziyan vuraraq kəndləri tərk edirlər. Onlar evləri, meşələri yandırırlar, abidələri dağıdırlar və salamat qalan hər şeyi sıradan çıxarırlar. Hətta özlərinin unitasa kimi mundar əşualarını belə götürüb aparırlar. Bu, ermənilərin necə xəstə düşüncə sahibi olduqlarından və terrorçuluq vərdişlərindən, necə vandal olduqlarının növbəti sübutudur.

Bəs Azərbaycanın Kəlbəcər rayonunun Ermənistan Silahlı Qüvvələri tərəfindən işğalı zamanı 53340 nəfər öz dədə-baba torpaqlarından qovulan, öldürülən 511 dinc sakinin, əsir götürülən və itkin düşən 321 nəfərin, rayona 761 milyon ABŞ dolları məbləğində ziyan vurduqları halda murdar sınıq-salxaq unitasların götürərən ermənilərin elə o murdur əşyaya layiq olduqlarını sübut edir. Qeyd edək ki, Qarabağdan çıxan ermənilər birbaşa İrəvana üz tuturlar.

Qeyd etmək lazımdır ki, Risiya sülhməramlıları bu vandalizm aktının qarşısını almağa borcludur.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir arasında imzalanmış bəyanata əsasən, Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Kəlbəcər rayonunu, Ağdam rayonunu 20 noyabr 2020-ci il tarixinədək və 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu Azərbaycan Respublikasına qaytarmalıdır.

Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev dediyi kimi: "Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzi idi, rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!"

**RƏFİQƏ KAMALQIZI**



# "Ermənistanda tam bir xaos hökm sürür"

"Məğlubiyyətin "dadını çıxardan" Ermənistanda tam bir xaos hökm sürür. Ölkəni etiraz mitinqləri bürüyüb, həbslər başlayıb. Bu proseslər düşmən ölkədə guya demokratiya dalğası ilə hakimiyyətə gəlmiş Paşinyan hökumətinin əsl sifətini bir daha çılpaq şəkildə nümayiş etdirməkdədir. Artıq Ermənistanın baş naziri qurduğu diktatura rejimini demokratiya pərdəsinə bürüyüb gizlədə bilmir. Ermənistanın yaşadığı fəlakətin əsas baiskarı olan Paşinyan onu ittiham edən bütün müxalifət nümayəndələrini həbsə atdırır, həmçinin onlara qarşı müxtəlif təzyiqlər və təhdidlər həyata keçirdir. Ermənistanda Paşinyanın istefası tələbi ilə keçirilən kütləvi aksiyalarda 10-dan artıq müxalifət lideri saxlanılıb və müxalifətçilər hərbi vəziyyət zamanı mitinq təşkil etməkdə, dövlət sirrini açıqlamaqda təqsirləndirilir". Bunu SİA-ya Əməkdar jurnalist Elman Babayev deyib.

Onun sözlərinə görə, Paşinyan amansız repressiyalara əl ataraq, bu yolla ölkə daxilində artan narazılıq və xalq qəzəbini söndürmək niyyətindədir. "Demokrat" Paşinyan iqtidarı müxalifət partiyalarının hökumətin fəaliyyəti ilə bağlı tənqidlərini cəmiyyətə "milli xəyanət" kimi təqdim edir. Paşinyanın "demokratiyası" o həddə çatıb ki, Ermənistanda dövlət orqanlarının və vəzifəli şəxslərin hərəkətlərini (çıxışları, nəşrləri də daxil olmaqla) tənqid edən, təkzib edən, şübhə altına alan və ya başqa bir şəkildə dəyərdən salan məlumatların dərc edilməsi, yayımlanması qadağan edilib.

Paşinyanın indiki davranışları heç də müharibədə üzləşdiyi məğlubiyyətlə bağlı deyil. Əslində Ermənistanda "demokratik inqilab" dalğası ilə iqtidara gələn Paşinyan hakimiyyətinin mayası ilk gündən diktatura ilə yoğrulub. Belə ki, Paşinyan hakimiyyətinin 7-ci ayında "demokratik islahatlara" başlamışdı. Bunun nəticəsində siyasi məhbus Mger Yegiazaryan aclıq aksiyası keçirərək həbsxanada vəfat etdi.

Paşinyan "islahatları" davam etdirərək hakimiyyətdə olduğu 2 il ərzində "korrupsiyaya qarşı mübarizə"yə başladı və bu ad altında siyasi rəqiblərini sıradan çıxartmağa nail oldu. Ermənistanın keçmiş prezidentlərdən biri həbs edildi, digərinə qarşı cinayət işi qaldırıldı. Aparıcı müxalifət partiyasının sədri, deputat Sarukyan bu gün də həbsdədir.

Paşinyanın bu davranışlarını Qərb dairələri həmişə görməzdən gəldilər. Bu heç də təsadüfi deyildi. Qərbin öz adamı kimi hakimiyyətə gətirdiyi şəxslərin qeyri-insani addımlarına göz yumması ənənəyə çevrilib. Paşinyan da belələrindəndir. Məhz Qərb dairələri Sorosun adamı olan Paşinyanı Ermənistanda demoktarik şəxs kimi qələmə verirdilər. 2018-ci ilin mayında Ermənistanda baş vermiş dövlət çevrilişini "demokratik inqilab", hakimiyyəti ələ keçirmiş Paşinyanı isə "demokrat lider" kimi təqdim edirdilər. Amma Paşinyan cəmi 2 ilə Ermənistanda demokratiyanın olan-qalan işartılarını belə məhv etməyi bacarıb. Ermənistan sözün bütün mənalarında kriminal şəxslərin neofaşizm yuvasına çevrilib. Vətəndaşların dinc etiraz aksiyalarını qeyri-mümkün edən yüksək cərimələr tətbiq olunur, hakimiyyəti, hətta bələdiyyələrə belə tənqidə görə 1200 avro cərimə tətbiq edilir, sosial şəbəkə istifadəçiləri və jurnalistlər açıq şəkildə hakimiyyətin özbaşınalıqlarını, cinayətlərini tənqid edə bilmirlər. Burada hansı demokratiyadan söz açmaq olar?

Amma Qərb, onun demokratik institutları, insan haqları təşkilatları ötən 2 ildə Paşinyan iqtidarının bu davranışlarına qarşı heç bir tənqidi mövqe sərgiləməyib. İndinin özündə də Paşinyan Qərbin gözündə "toxunulmaz" şəxsdir.

Bəlkə də zamanında Paşinyanın qeyri-demokratik addımlarına qarşı cəza tətbiq olunsaydı, o, növbəti daha böyük cinayətlərə əl atmaz, hərbi cinayətlərə də yol verməzdi.

Deməli, bu gün regionda yaşanmış müharibə və dağıntılara görə yalnız Paşinyan məsuliyyət daşımır. Bütün bunlarda Paşinyana hakimiyyət kürsüsünə qalxması üçün hər cür dəstək verən, sonradan onun bütün cinayətlərinə göz yuman Qərb dairələri, təşkilatları da məsuliyyət daşıyırlar.

Bir anlıq təsəvvür edin ki, Ermənistanda baş verənlərin bir neçəsi Azərbaycanda yaşanır. Dərhal bütün Qərb instutları hərəkətə gətirilər, Azərbaycanın əleyhinə davamlı bəyanatlar verilərdi.

Bu gün Ermənistanda hamının gözü qarşısında müxalifətin əzilməsi və sıradan çıxarılması tam bir susqunluqla qarşılanır. Heç kim bunu "görmür". Dünyada ikili standartlar, ədalətsizlik, selektiv münasibət ən iyrənc şəkil alıb.

44 günlük müharibə zamanı Prezident İlham Əliyevdən müsahibə götürən Qərb mediası feyk məlumatlar əsasında ölkəmizdə demokratiya, insan haqları ilə bağlı ittiham xarakterli suallar verirdilər. Hətta Almaniyanın ARD kanalı irəli gedərək yalan məlumatlar əsasında Azərbaycanda müharibə dönəmində bir nəfərin sülh tələb etdiyinə görə həbs olunması barədə sual verdi. Azərbaycan Prezidentinin ad tələb etməsindən sonra bunun yalan olduğu anındaca üzə çıxdı. Həmin beynəlxalq media bu gün Ermənistandakı kütləvi həbsləri, təqibləri niyə görmür? Paşinyan kimi alçalmış bir adama bu barədə sual verməyə özlərində cəsarət tapmayanların Azərbaycana qarşı səlib yürüşünün səbəbi nədir?

İllərdir Azərbaycan Prezidentinə xarici mediada hər cür böhtan atılır. Bunun başlıca səbəbi demokratiya, filan deyil. Səbəb Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, Ermənistandan işğal etdiyi torpaqları geri almaq üçün sistemli mübarizəsi idi. Azərbaycanı ləkələmək, güclənməsinin qarşısını almaq, ölkənin mənfi imicini yaratmaq üçün hər cür yola baş vurulurdu.

Bunu illərdir sifariş edənlərin əsl kimlikləri, simaları gün kimi ortadadır. Bu gün Ermənistan haqq işi uğrunda mübarizə aparan Azərbaycanın qarşısında diz çöküb, düşmən ölkə xaosa sürüklənib, iqtisadiyyatı çöküb. İndi bu dairələr işğalçı Ermənistanın xilası üçün açıq şəkildə, heç bir utanc hissi duymadan hərəkətə keçiblər. Bərdə, Gəncə və digər Azərbaycan şəhərlərində mülki insanlara qarşı Ermənistanın müharibə cinayətlərindən bəhs olunmur. Hansısa Qərb mediasının bu hadisələrdən obyektiv nəsə yayımlamasına imkan verilmir, bunu edənlərə təzyiqlər olunur. Əvəzində Azərbaycana və onun liderinə qarşı uydurmaları davam etdirmələrinə şərait yaradılır. Bu gün bir sıra Qərb ölkələrinin, o cümlədən Fransanın, Kanadanın Ermənistana dəstək bəyanatları bu ölkələrin hakim dairələrinin həqiqi simalarını və mahiyyətini aydın əks etdirir".

***Ceyhun Rasimoğlu***

# Sülh razılaşmasından nə itirdik, nə qazandıq?

*Heç də hər şey hərbi meydanda həll olunmur, əsas məqsəd nəticədir, amma əsas məsələ də bu nəticəni nəyin bahasına əldə etməkdir*



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

**2-ci Qarabağ müharibəsində Azərbaycan Ordusunun göstərdiyi möhtəşəm qəhrəmanlıq nümunəsi və əldə edilən böyük qələbə hamıya məlumdur. Qısa müddətdə Qarabağın 30 faizi azad edildi. Lakin tərəflər arasında bağlanmış sülh razılaşması ilə döyüşlər dayandı və məğlub olmuş Ermənistan qalan 70 faizlik hissəni sülh yolu ilə tərk edəcəyi haqda öhdəlik götürdü. Artıq bu prosesə başlanıb. Bəs müharibə davam etsəydi vəziyyət necə olacaqdı, hansı qazanclarımız, hansı itkilərimiz ola bilərdi? Hansı yol əlverişli idi - hərb, yoxsa sülh?**

## Ermənistanın kimin yanında olmasının nəticəsi

Problemin həll olunması Ermənistanın kimin yanında olmasının da böyük təsiri oldu. Amerika və Rusiya arasında 1-cini seçən ermənilər yol verdikləri çox kobud səhvin əvəzini ağır ödədi. Müharibə dövründə 2 variant var idi.

1. Ermənilər uduzduqlarını görüb Paşinyanı devirəcəkdilər və onda artıq sülh şərtləri indiki kimi, Ermənistanın tam kapitulyasiyası şərtləri və bizim tam qələbəmiz formasında olmayacaqdı. Hakimiyyətə Rusiyayönümlü adam gətirə və vəziyyəti öz xeyirlərinə çevirə bilərdilər. Amerika və Fransanın Ermənistanın tərəfində olduğu başdan məlumdur, beləcə Rusiya da daxil hər 3 fövqəldövlət Ermənistanın tərəfində olacaqdı. Belə vəziyyətdə biz daha çox güzəştə getməyə məcbur qalacaqdıq.

2. Baydenin, yəni Paşinyanın birbaşa ağasının Amerika prezidenti seçilməsi Ermənistanın əlini gücləndirəcəkdi. Amerika və Fransa milyardlarla pul xərcləyib rəngli inqilabda başa gətirdikləri Paşinyan hakimiyyətinin devrilməməsi və Ermənistanın əllərindən çıxıb Rusiyanın nəzarətinə keçməməsi üçün ciddi addımlar ata bilərdilər. Belə ki, ermənilərə minlərlə peşəkar "nayomnik", müasir PUA-lar da daxil olmaqla minlərlə silah-texnika və xeyli maliyyə ayıra bilərdilər ki, Qarabağ itirilməsin, Paşinyan dəstəsini ermənilər devirməsin və o da hakimiyyətə gətirilməsinin əsas məqsədini- KTMT-dən çıxaraq Rusiya bazasını ölkədən çıxarmasını, təmin etsin.

Artıq son aylarda Paşinyan özü açıq deyə bilməsə də, dolayı yolla bəzi erməni siyasətçilərinə bazanın çıxarılmasının vacibliyini dedirdirdi, özü isə əl altdan bunun üçün müvafiq hazırlıq işləri aparırdı. Rusiyanın hələ Sovet dövründən Ermənistanda yerləşən NATO-ya qarşı hərbi bazasının nə dərəcədə strateji əhəmiyyətə malik olmasını geniş izah etməyə ehtiyac yoxdur. Bu baza Rusiya üçün təkcə cənub istiqamətində NATO-dan müdafiə sistemi deyil, həm də Yaxın Şərqə birbaşa hərbi nəzarət və lazım gəldikdə müdaxilə platsdarmıdır. Belə bir bazanın çıxarılması Qərb istiqamətində hərbi yolları bağlanan Rusiyanın cənuba da hərbi yolunun bağlanması deməkdir. Üstəlik, Gürcüstandan sonra, Ermənistanda da Amerikanın əyləşməsi Rusiya üçün cənub istiqamətinin tam itirilməsi deməkdir.

Rusiya da bu təhlükəni görürdü. Ermənistandakı Amerikan hakimiyyətinin devrilməsi yalnız bir halda mümkün ola bilərdi - ermənilər üçün həyati əhəmiyyətli bir faciə baş verdikdə - müharibədə uduzduqda və Qarabağı qaytarmağa məcbur olduqda. Qarabağın itirilməsindən sonra Paşinyan hakimiyyəti devriləcək və Rusiya Ermənistanı geri qazanmış olacaq. Bunu Rusiya üçün təmin edən yeganə qüvvə Azərbaycan ola bilərdi, məhz bu səbəbdən Rusiya bu məsələdə Bakının tərəfində oldu. İlham Əliyev isə ələ düşmüş bu unikal vəziyyətdən məharətlə istifadə edərək Qarabağı geri qaytardı. 2 ölkənin maraqları üst-üstə düşdüyündən Ermənistanı əvvəl müharibədə ağır məğlubiyyətə, sonra isə təslimçi sülhə məcbur etdilər.

## Qarabağ müharibəsi: kim nə qazandı, kim nə itirdi?

Prosesin əsas tərəfləri arasında konkret nəticə bu olur ki, Azərbaycan Qarabağı, Rusiya isə Ermənistanı qaytarır. Hər şeyi itirən Ermənistanın yeganə "qazancı" odur ki, Qarabağın kiçik bir hissəsində yerli ermənilərin bizim hakimiyyətiniz altında, qanunlarımıza tabe olacaq vətəndaşımız kimi yaşamasına icazə verilir.

Regionda yeni əməkdaşlıq platformasının yaradılacağı ehtimalı yüksəkdir. Bundan isə, bütün regon dövlətləri fayda əldə edəcək. O cümlədən, işğalçı və terrorçu siyasətindən əl çəkərsə, çökməkdə olan Ermənistan da.

Region dövlətlərinin qazandıqlarına qısaca nəzər salaq.

Türkiyənin qazancı - Naxçıvan ərazisindən Azərbaycanın bütün ərazisinə və Orta Asiyaya birbaşa çıxış əldə edir. Bundan başqa, Türkiyə Qarabağda sülhməramlı missiyada, sülhyaratma işində iştirak edir və bununla da regiuonda hərbi və siyasi nüfuzunu artırır. Üstəlik, yaxın gələcəkdə regional əməkdaşlıqdan, nəqliyyat dəhizlərindən xeyli iqtisadi fayda əldə edəcək.

İran da nəsə uduzmur, əsas qazancı isə odur ki, Ermənistan vasitəsilə burnunun ucuna girmiş Amerika oradan çıxmalı olur. Bundan başqa, o da Türkiyə kimi regional əməkdaşlıq platformasından xeyli iqtisadi dividentlər əldə edəcək. Sanksiyalar altında və yarımblokada şəraitində qalaraq iqtisadiyyatı zəifləyən ölkə üçün bu çox əlverişli nəfəslikdir.

Gürcüstanın əsas qazancı odur ki Cavaxetiya məsələsi getdi tarixin arxivinə, çünki müharibədən hərbi və iqtisadi cəhətdən darmadağın çıxan Ermənistan çox uzun müddət özünə gələ bilməyəcək ki, potensial etnik qarşıdurma ocağını alovlandırıb Gürcüstanda 2-ci Qarabağ yarada bilsin. Amma ölkənin strateji əhəmiyyəti və gəlirləri bir qədər azalacaq. Nəqliyyat dəhlizləri şaxələnəcək, Türkiyə və Azərbaycanın Gürsüstandan asılılığı azalacaq. Bununla belə, regional əməkdaşlıq platformasına qoşulsa daha çox fayda əldə edə bilər.

Bu region ölkələrinin burada qazandığı və itirdikləridir. İndi isə fövqəldövlətlərin vəziyyətinə baxaq.

## Amerika, Avropa və Rusiya nə qazandı, nə itirdi?

Amerika ən çox itirən ölkədir. Qarabağın əldən çıxmasına görə, ermənilər Paşinyanı devirəcək və ölkə Amerikanın əlindən tam çıxacaq. Yəni, Yaxın Şərqdə Türkiyə kimi müttəfiqini itirmiş, indi isə Qafqazda Ermənistanı da itirən və yalnız Gürcüstanın ümidinə qalan Amerikanın regionda mövqeləri və nüfuzu zəifləyir. Qarabağ kimi problemin həllində oyundan kənarda qalır və regiona təsir nüfuzu azalır.

Rusiyanın ən böyük qazancı itirdiyi Ermənistanı yenidən Amerikanın əlindən alıb geri qazanmış olur. Bundan başqa, həm regionda, həm dünyada nüfuzu, imici yüksəlir, "qan tökülməsini dayandırdım, 30 ildir dünyanın həll edə bilmədiyi ən çətin problemi həll etdim, özü də sülhlə"- demək haqqı qazanır. Ona görə də, Moskva çalışacaq ki, razılaşmanın müdəaaları pozulmasın və hər şey düzgün yerinə yetirilsin. Əks təqdirdə Rusiyanın beynəlxalq nüfuzuna xələl gələcək, imici daha da korlanacaq.

Fransanın timsalında Avropa da oyundankənar qaldı, regiona təsirini və nüfuzunu itirdi. Bundan əlavə, Azərbaycan Fransanın qatı ermənipərəst mövqeyini unutmayacaq, regional iqtisadi və nəqliyyat layihələrində bunu nəzərə alacaq.

Britaniya heç nə qazanmasa da, heç nə itirmədi. Azərbaycanı siyasi olaraq dəstəkləməsi iqtisadi olaraq qazandıqlarının əvəzi idi.

## Ermənistanda divlərin döyüşü: kim qazanacaq?

Hazırda Rusiya və Amerika Ermənistanda toqquşurlar və gərgin mübarizə aparırlar. Ermənilər gec də olsa ayıldılar və Paşinyanı devirməyə çalışırlar, burada əlbəttə Rusiyanın da müxalifətə dəstəyi var. Lakin Amerika buna imkan verməməyə və "Mənim addımım" partiyasının hakimiyyətdə qalmasına çalışır. Kimin qalib gəlməsindən asılı olmayaraq biz vaxtında və ən arzuolunan vəziyyətdə Qarabağı qaytara bildik. Artıq Bayden də Paşinyana kömək edə bilməz.

Amerikanın tapşırığı ilə sülhün Ermənistan tərəfindən pozulma cəhdləri Rusiyanın beynəlxalq nüfuzuna və imicinə böyük zərbə olacağından Moskva buna görə Yerevanı daha sərt cəzalandıra bilər.

Onu da qeyd etmək lazımdır ki, Sazişi imzalamaqla Ermənistan özünü tərəf kimi rəsmiləşdirdi və son 30 ildə Azərbaycana vurulan (müxtəlif qiymətləndirmələrə görə 50-300 milyardlıq) zərərə görə təzminat tələbi üçün də Bakıya hüquqi əsas verdi.

## Prezident və xalqın birliyi Qələbəni təmin etdi

Prezidentimizin mükəmməl strateji düşüncəsi sayəsində Qarabağı ən yaxşı variantla, mümkün olan ən minimal itkilərlə azad etdik. Prezidentimizin prosesi ən uyğun beynəlxalq şəraitin yarandığı vaxtda, əvvəlcədən iqtisadi, siyasi-diplomatik və informasiya-təbliğat müharibəsini qazanmaqla başlaması, eyni vaxtda həm müharibəni, həm xarici siyasəti, həm informasiya müharibəsini, həm ölkənin idarə edilməsini mükəmməl aparmaqla arzu etdiyimizdən də böyük nəticəyə daha asan nail olması bunu deməyə əsas verir. İlham Əliyev böyük şahmat taxtasında sonuncu gedişlə "Mat" elan edərək qalib gəlmişdir. Bunu bütün dünyada, hətta düşmən dövlətin rəsmi və ictimai şəxsləri də etiraf edirlər.

Qələbəni minlərlə artıq şəhid vermədən, düşmən Qarabağı tam xarabalığa çevirmədən, bütün meşələri yandırmadan, Sərsəng su anbarını partladıb ekoloji və sosial fəlakət törətmədən, "Metsamor"un radiaktiv tullantılarını Qarabağa səpmədən, şəhərlərimizə əlavə yüzlərlə raket düşmədən, daha yüzlərlə mülki vətəndaşımız ölmədən, davam edəcək müharibəyə milyardlarla manat artıq xərc çəkmədən, həmçinin, ölkəmizin uzaqda qalan anklav hissəsinə-Naxçıvana, oradan da Türkiyəyə birbaşa yol əldə edərək... dünyada sülhsevər imici yaradaraq, regiona ən böyük təsir imkanı olan Rusiyanı və əksər ölkələri tərəfinə çəkərək qazanan, Qarabağı mümkün olan ən yaxşı şərtlərlə azad edən, milli birliyi təmin edən İlham Əliyev həm böyük dövlət rəhbəri, həm böyük sərkərdə, həm böyük milli lider olduğunu sübut etdi və adını qızıl hərflərlə tarixə yazdı.

1-ci Qarabağ müharibəsində dövlət-ordu-xalq birliyi olmadı və ona görə də uduzduq. 2-ci Qarabağ müharibəsində isə Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuz ön cəbhədə, bütün xalqımız da arxa cəbhədə döyüşdü və xalqla dövlətin birliyi qalib gəldi.

Zaman keçəcək və hamı bu Qələbənin tariximizdə ən böyük və ən möhtəşəm Qələbə olduğunu və onun hələlik ortada olmayan strateji faydalarını da görəcək.

Bu birlik qorunub saxlanacaq. Ölkəmiz tamam dəyişəcək. Son vətəndaşa qədər hamı "Fəxr edirəm ki Azərbaycanlıyam" sözünü ürəkdən deyəcək.

Azərbaycan dünyaya Günəş kimi doğacaq.

***Elçin Bayramlı***

# Səs

## Son səhifə

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

14 noyabr


# AVRO-2020-nin bütün iştirakçıları müəyyənləşib




***Avropa çempionatının bütün iştirakçılarının adına aydınlıq gəlib. Bu, AVRO-2020-nin pley-off mərhələsində final oyunlarından sonra məlum olub. Son 4 vəsiqəyə Şimali Makedoniya, Şotlandiya, Slovakiya və Macarıstan sahib çıxıb. Onlar müvafiq olaraq, C, D, E və F qruplarına düşüblər.***

A qrupu: Türkiyə, İtaliya, Uels, İsveçrə
B qrupu: Danimarka, Finlandiya, Belçika, Rusiya
C qrupu: Niderland, Ukrayna, Avstriya, Şimali Makedoniya
D qrupu: İngiltərə, Xorvatiya, Şotlandiya, Çexiya
E qrupu: İspaniya, İsveç, Polşa, Slovakiya
F qrupu: Macarıstan, Portuqaliya, Fransa, Almaniya

Qeyd edək ki, koronavirus pandemiyası səbəbindən 2021-ci ilin yayına təxirə salınan AVRO-2020-nin matçları Bakı da daxil olmaqla qitənin 12 şəhərində baş tutmalıdır.

# Neymar Braziliya millisindən kənarlaşdırıldı!



"Paris Sen-Jermen" komandasının futbolçusu Neymar müvəqqəti olaraq Braziliya millisindən kənarda qalacaq. Xarici KİV-lərin yazdığına görə, buna səbəb braziliyalı hücumçunun UEFA Çempionlar Liqasının qrup mərhələsinin ikinci turunda Türkiyənin "Başakşehir" komandası ilə matçda zədələnməsidir. O, bu arada millinin dünya çempionatının seçmə mərhələsində Venesuela və Uruqvayla keçirəcəyi qarşılaşmalarda iştirak etməyəcək.

Qeyd edək ki, Braziliya millisini noyabrın 14-də Venesuela, dörd gün sonra isə Uruqvayla qarşılaşacaq.

# Qış üçün daha faydalı olan D vitaminli beş sadə məhsul




İmmunitet sistemi üçün həyati əhəmiyyət daşıyan D vitamini günəş şüası sayəsində əmələ gəlir. Qışda, günəş çatışmazlığı şəraitində tərkibi D vitamini ilə zəngin olan məhsulların qəbulu xüsusi əhəmiyyət kəsb edir.

Qarşıdakı qış aylarında tərkibində D vitamini olan məhsulların qəbulu, yəqin ki, daha zəruri olacaq. Alimlərin çoxu onu koronavirus infeksiyasına və kovidin ən ağır formasının inkişafına qarşı etibarlı qoruyucu sayır. D vitamininin bu xüsusiyyəti onun faydalı xüsusiyyətlərini genişləndirir. Məsələn, məlumdur ki, ilin ən soyuq və tutqun vaxtlarında D vitamininin kifayət etməsi mövsümi depressiyanın qarşısını alır, narahatlığı azaldır. Bundan əlavə, sümük və dişlərin sağlamlığı üçün zəruri olan kalsium və fosforun mənimsənməsinə müsbət təsir göstərir. D vitamininin digər bir faydalı xüsusiyyəti onun hüceyrələrin insulinə həssaslığını və mədəaltı vəzidəki beta hüceyrələrinin fəaliyyətini gücləndirərək ikinci növ diabetin inkişafından qoruya bilməsidir.

Mütəxəssislər gün işığının az olduğu qış aylarında rasiona orqanizmi bu vitaminlə təmin edən qida məhsullarını daxil etməyi məsləhət görürlər. "Well + Good" portalında bunlardan ən azı üçünün rasiona daxil edilməsini tövsiyə edərək beş sadə və əlverişli mənbənin adını açıqlayıb. AZƏRTAC sizi həmin məhsullarla tanış edir.

Yumurta sarısı. Bir böyük yumurtanın sarısı D vitamininin birgünlük normasının təxminən 10 faizindən ibarətdir. Qışda daha çox ehtiyac duyduğunuz vitamin dozasını artırmaq üçün digər müvafiq inqrediyentləri də əlavə etməklə omlet hazırlamaq olar.

Qızılbalıq. Qızılbalıq növləri bu vitaminin çox zəngin qida mənbələrindən sayılır. 100 qram qızılbalıq D vitamininə olan birgünlük ehtiyacın 70 faizini təmin edə bilir.

Tunes. Tərkibi D vitamini ilə zəngin olan daha bir dəniz məhsulu tunes balığıdır. Bu balığın 120 qramı (hətta konservləşdirilmiş halda) orqanizmin vitaminlərə olan birgünlük ehtiyacının 34 faizini ödəyir.

Göbələklər. Ağ göbələklər (onların bir fincanı gündəlik normanın 46 faizini təşkil edir) D vitaminin çox səxavətli bitki mənbəyi sırasına daxildir. Bu baxımdan həmin sıraya daha əlçatan olan şampinyonları da əlavə etmək olar. Onlar, günəş işığı və ya kəsik süni işığın təsiri altında D qrupu vitaminlərini sintez etmək qabiliyyətinə malikdirlər.

Süd. Bir fincan 2 faizli süd D vitamininin birgünlük normasının 155 faizini təşkil edir. Qeyd edək ki, onu siz yumurta omleti ilə hazırladığınız səhər yeməyinə də əlavə edə bilərsiniz.

# Abşeronda maşın oğurlayan şəxs tutulub




***Abşeron rayonunda avtomobil oğurlayan şəxs tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, noyabrın 11-də Abşeron rayonunun Mehdiabad qəsəbə sakini S.İsgəndərov Digah qəsəbəsi ərazisindən "Toyota" markalı avtomobilinin qaçırıldığı barədə rayon polis idarəsinə müraciət edib.***

Həmin avtomobil Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb və nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən Ə.Əlizadə avtomobillə birgə aidiyyəti üzrə təhvil verilib. Faktla bağlı Abşeron Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.



# XƏBƏRDARLIQ: Hava kəskin dəyişir!

Noyabrın 15-i axşamdan 18-dək Bakıda və Abşeron yarımadasında hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı gözlənilir.

Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, noyabrın 15-i axşam şərq rayonlarında, 16-sı axşamdan isə əksər rayonlarda arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Havanın temperaturu tədricən 5-7 dərəcə aşağı enəcək. Çaylarda sululuğun artacağı istisna olunmur.


**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600